www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 avqust 2019-cu il Cümə axşamı № 165 (7335) Qiyməti 60 qəpik

**Xəbər**

## İki nəhəngin pul davası Bakı neftini 30 dollar edə bilər

yazısı səh.12-də

**Gündəm**

### Paşinyan "miatsum" bəyanatı ilə Ermənistanı pat vəziyyətinə saldı



İrəvan baş nazirin mövqeyinə düzəliş etməyə çalışdı; erməni ekspertlər Nikol Paşinyanın mövqeyini pisləyir; rəsmi Bakıdan Ermənistan XİN-in təkzibinə cavab gəldi

yazısı səh.9-da

### Prezident İlham Əliyev və xanımı Pirallahıda

yazısı səh.2-də

### Avroliqa oyunu: Yəmən yəhudiləri bakılılara qarşı

yazısı səh.15-də

### Paytaxtda Qurban bayramı hazırlıqları

yazısı səh.14-də

### Təqaüdə göndərilən məşhur hakim "Pensiya Fondu"nu məhkəməyə verdi

yazısı səh.6-da

### Bakıda tozun artmasına səbəb daş karxanalarıdır-təhlükə

yazısı səh.4-də

### PKK-ya ağır zərbələr-terror təşkilatı tarixmi olur...

yazısı səh.7-də

### Ölkəmizin də olduğu fındıq bazarında rəqabət şiddətlənir

yazısı səh.10-da

### Azərbaycan Kəşmirlə bağlı fövqəladə toplantıya çağırıldı-Bakının mövqeyi nədir?

yazısı səh.12-də

### 17 yaşında canına qıyanlar-son bir aydakı iki intihar araşdırılır

yazısı səh.14-də

# İŞĞALÇI ORDU HAQDA ŞOK FAKTLAR - İRƏVANDA SAXTA MƏHKƏMƏLƏR

Düşmən ölkə rəhbərinin 7 arzusu və... onları əlçatmaz edən tək Qarabağ gerçəyi; **erməni hüquq müdafiəçisi mediaya:** "Ordudakı cinayətlər dərc ediləndən qat-qat çoxdur..."



yazısı səh.8-də

## Eldar Mahmudov üçün "qan testi"

İlk dəfədir sabiq MTN şefinin yaxın qohumu məhkəmə qarşısına çıxarılıb; əmisi oğlu Vüqar Mahmudov digər generallar kimi sona qədər susacaqmı?

yazısı səh.7-də




### Azərbaycanlı həkim xərçəngi tam sağaltdığını iddia edir

yazısı səh.4-də




### AYB sədrliyi uğrunda mübarizə qızışdı - şok açıqlamalar, ittihamlar

yazısı səh.5-də



### Sərdar Cəlaloğlu bacısı oğlunun həbsindən danışdı

yazısı səh.6-da

8 avqust 2019

YENİ MÜSAVAT
N 165 (7335) 8 avqust 2019



## İlham Əliyev və xanımı Pirallahıda

**Azərbaycan prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 7-də Pirallahı rayonunda yeni inşa olunmuş "Mirvari" park və "Nərəkənd" balıqyetişdirmə komplekslərinin açılışına qatılıblar.**

Pirallahı rayonunda qəzalı binaların sakinləri üçün yeni yaşayış kompleksi inşa olunur.

Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kompleksdə inşa olunan binalardakı mənzillərdə yaradılan şəraitlə də tanış olublar. İlham Əliyev və birinci xanım Pirallahı Rayon İcra Hakimiyyətinin yeni inzibati binasının açılışında iştirak ediblər. Bundan başqa, prezident və xanımı YAP Pirallahı təşkilatının və Gənclər Mərkəzinin yeni binalarının açılışında da iştirak ediblər.

## Gələn həftə Türkmənbaşıda Xəzər Forumu başlayır

**Avqustun 11-12-də Türkmənbaşı şəhərindəki "Avaza" milli turizm zonasında birinci Xəzər İqtisadi Forumu keçiriləcək və tədbirə Ermənistan baş nazirinin müavini Mqer Qriqoryanın başçılığı ilə nümayəndə heyəti də qatılacaq.**

Foruma Ermənistanın da dəvət olunması ölkəmizdə ciddi müzakirələrə səbəb olub. Xəzərin hüququ statusu ilə bağlı Konvensiyanın beş ölkə-Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmənistan arasında imzalanmasından bir il sonra İqtisadi Forumun təyin edilməsi və ora da Ermənistanın dəvət olunmasının ciddi mətləblərdən xəbər verdiyi vurğulanır. Burada Rusiyanın rolunun olduğu və bununla şimal qonşumuzun düşmən ölkəni "Xəzər bazarlığı"nda iştirakçı ölkəyə çevirmək niyyətində olduğu qeyd olunur.

**Politoloq Əhəd Məmmədli** bildirdi ki, Rusiya nə etdiyini çox gözəl bilir: "Kreml Ermənistanı maraq dairəsində saxlamaq üçün hər yerə yönəldir. Düzdür, Azərbaycanın da hələlik Qara dənizə çıxışı yoxdur, amma bizim ölkə də Qara dəniz ölkələrinin forumlarında iştirak edir. Azərbaycan etiraz etsə, Ermənistan yuxarıda qeyd edilənləri qarşımıza qoya bilər ki, sizin də Qara dənizə çıxışınız yoxdur, lakin Qara dəniz ölkələrinin tədbirlərində iştirak edirsiniz. Təbii ki, bütün bunlar Azərbaycan üçün bəhanə olmamalıdır. Rəsmi Bakı Ermənistanın Xəzər İqtisadi Forumunda iştirakına etiraz edib tələb qoymalıdır ki, Ermənistanın iştirakı iptal edilməlidir. Əks halda, Azərbaycan qətiyyətlə bildirməlidir ki, bu forumda iştirak etməyəcək. Qoy Xəzər dənizindəki qonşularımız seçim etsinlər, biz, ya ermənilər? Sizi əmin edirəm ki, ən azından qardaş Qazaxıstan Azərbaycan deyəcək. Bununla həm də Rusiya Azərbaycanın təpərini hiss etməli, etirazını görməlidir. Azərbaycan Rusiya ilə üz-üzə gəlməyə çəkinməməli, qorxmamalıdır. Əks halda, Rusiya Ermənistanı Azərbaycanın qarşısına hələ çox qoyacaq. Xəzərdə əsas skripkanı Rusiya oynayır. Məlum məsələdir ki, həmin foruma Ermənistanın çağırılmasının təəssübkeşi Rusiya olub. Rusiyanın nə istədiyi də məlumdur. Azərbaycanın ərazilərini əslində Ermənistan deyil, Rusiya işğal edib. Ermənistan, sadəcə, Rusiyanın Azərbaycana qarşı istifadə etdiyi, qorxutduğu müqəvvadır. Təbii ki, Xəzər İqtisadi Forumu adı ilə keçirilən tədbir Rusiyanın təəssübkeşliyi, istəyi ilə keçirilir. Məqsəd də dünyaya bura mənlikdir mesajını verməkdir. Region ölkələrinin üzərinə də təsir mexanizmini daha da gücləndirməkdir. Ermənistanın Xəzərə heç bir aidiyyəti yoxdur. Bunu da Azərbaycan indi Rusiyaya aydın anlatmalıdır ki, Xəzərə aid tədbirlərə bir daha rəsmi düşmənlərimiz dəvət edilməsinlər".

❑ **Cavanşir ABBASLI**
**"Yeni Müsavat"**

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

# Elinanın intiharına görə təqsirləndirilən direktorun həbsi tələb olunur

**Bakıdakı 162 saylı tam orta məktəbin 8-ci sinif şagirdi Elina Hacıyevanın ölüm işində təqsirləndirilən şəxs kimi tanınan həmin məktəbin keçmiş direktoru Sevinc Abbasovanın yenidən həbsi istənilir.**




Avqustun 7-də Səbayel Rayon Məhkəməsində S.Abbasova barəsində seçilmiş ev dustaqlığı qətimkan tədbirinin həbslə əvəzlənməsinə dair şikayətin verilməsi ilə bağlı müddətin bərpası üçün müraciətə baxılıb.

2019-cu ilin iyulunda zərərçəkmiş tərəf S.Abbasova barəsində ev dustaqlığı qətimkan tədbirinin həbslə əvəzlənməsi ilə bağlı apelyasiya məhkəməsinə müraciət etmişdi. Lakin məhkəmə şikayətin vaxtının ötməsini səbəb kimi göstərərək onu təmin etməmişdi.

Avqustun 7-də keçirilən prosesdə məhkəmə zərərçəkənin nümayəndələrinin müddətin bərpası ilə bağlı müraciətlərini təmin edib və işi yenə Bakı Apelyasiya Məhkəməsinə göndərib.

Şikayətə avqustun 8-də Bakı Apelyasiya Məhkəməsinin hakimi Mirzəli Abbasovun sədrliyi ilə keçiriləcək prosesdə baxılmalıdır.

Hələlik prosesdə baş verən bu dönüşə S.Abbasova və ya onun vəkilinin münasibətini almaq mümkün olmayıb.



## Şüvəlanda qız dayısını baltaladı

**Bakıda qız dayısına balta ilə hücum edib. Hüquq-mühafizə orqanlarından oxu.az-a verilən məlumata görə, hadisə paytaxtın Xəzər rayonu, Şüvəlan qəsəbəsində qeydə alınıb.**

Məlumata görə, 1949-cu il təvəllüdlü Adil Mənsur oğlu Şükürov bacısı qızı, 1989-cu il təvəllüdlü Dibirova Elvira Şaban qızının hücumuna məruz qalıb. Belə ki, 30 yaşlı qız balta ilə dayısına xəsarət yetirib.

Hadisəni törədən E.Dibirovanın ruhi-əqli vəziyyətinin yerində olmadığı qeyd edilir.

Yaralı A.Şükürov 3 saylı Şəhər Kliniki Xəstəxanasına yerləşdirilib. Vəziyyəti stabildir.

## Neft Fondu valyuta satışını 12% azaldıb

**Dövlət Neft Fondu 2019-cu ilin yeddi ayı ərzində həyata keçirdiyi valyuta satışının məbləğini açıqlayıb.**

Qurumun mətbuat xidmətindən verilən məlumata görə, fond göstərilən müddətdə 3 078,5 mln. ABŞ dolları məbləğində valyuta satışı həyata keçirib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 432,3 mln. dollar, yaxud 12,3% azdır.

Məlumatda o da vurğulanıb ki, yeddi aylıq valyuta satışının 434,9 mln. dolları iyul ayının payına düşüb.




## Zelenski Putinə zəng etdi

**Ukrayna prezidenti Vladimir Zelenski Donbasda baş verən gərginliklə bağlı rusiyalı həmkarı Vladimir Putinə zəng vurub. Virtualaz.org yerli KİV-ə istinadən bildirir ki, Zelenski bu barədə jurnalistlər üçün keçirdiyi brifinqdə deyib.**

"Bu səhər mən ... Rusiya prezidenti Vladimir Putinlə bu barədə danışdım. Təcili olaraq ona zəng etdim və dedim ki, bu atəş bizi sülhə yaxınlaşdırmır. Xahiş edirəm qarşı tərəfə təsir edəsiniz ki, bizim adamları öldürməyi dayandırsınlar", - deyə V.Zelenski vurğulayıb. Onun sözlərinə görə, Putinlə söhbət çox uzun çəkib.

Yeri gəlmişkən, bu, iki ölkə liderləri arasında ikinci telefon danışığıdır. Zelenski ilə Putin arasında ilk telefon söhbəti iyulun 11-də olmuşdu. Onda da söhbətin mövzusu Donbasdakı münaqişənin nizamlanması idi...

Xatırladaq ki, Vladimir Zelenski Donbasda baş verən atışmalar səbəbindən güc strukturlarının rəhbərləri ilə iclas keçirib.

Prezidentin ofisində keçirilən iclasda Ukrayna Baş Qərargahının rəhbəri Ruslan Xomçak, Ukrayna Silahlı Qüvvələrinin əsas birləşmələrinin rəhbərləri və Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Aleksandr Danilyuk iştirak ediblər.

Onu da qeyd edək ki, "Unian"ın məlumatına görə, Donbas separatçılarının Pavlopol rayonunu atəşə tutması nəticəsində 4 Ukrayna hərbçisi həlak olub.

## Yollarda qətliam: 6 ayda 342 ölü, 745 yaralı...

**Bu ilin 6 ayında Azərbaycanın avtomobil yollarında baş verən yol qəzalarının statistikası açıqlanıb. Dövlət Statistika Komitəsindən (DSK) "Report"a verilən məlumata görə, bu ilin yanvar-iyun aylarında ölkənin avtomobil yollarında 822 və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,0 faiz çox yol-nəqliyyat hadisəsi baş verib, bu hadisələr nəticəsində zərər çəkən şəxslərin sayı 1,2 faiz artaraq 1087 nəfər olub.**

Onlardan 342-si həlak olub, 745-i isə yaralanıb. Hadisələrin 46,3 faizi gündüz, 36,5 faizi gecə, 17,2 faizi isə toran vaxtı baş verib, 29,3 faizi həftənin şənbə və bazar günlərinə təsadüf edib.



## Gürcüstana Bakıdan keçib gedən rusiyalı turistlərin sayı 85 faiz artıb

**Rusiyalılar hazırda Gürcüstana təyyarə ilə birbaşa səfər edə bilmirlər.**

Buna baxmayaraq, prezident Vladimir Putinin Gürcüstana uçuşları qadağan edən fərmanından sonra rusiyalılar bu ölkəyə qatarlar, bərələr və avtomobillərlə gəlməkdə davam edirlər. Hərçənd Rusiyadan Gürcüstana gələn turistlərin sayı yay ərzində 14, 8 faiz azalıb.

Gürcüstan Milli Turizm Administrasiyasının məlumatına görə, bu ilin iyul ayında Rusiyadan Gürcüstan şəhərlərinə 108 min 214 turist gəlib. Halbuki bu rəqəm ötən ilin müvafiq dövründə 127 min nəfər idi.

Milli Turizm Administrasiyası bunu da bildirir ki, Gürcüstana dəmir yolu ilə, Bakıdan keçərək gələn rusiyalıların sayı ötən illə müqayisədə 85 faiz artıb.

Rusiyalı turistlərin 58 faizi Gürcüstana dəniz nəqliyyatı vasitəsilə gəlib. Avtomobillə səfərdən yalnız 7, 1 faiz turist istifadə edib.

## Ağsu sakini: "Zəlzələ evimizi qəzalı vəziyyətə salıb"

**Ağsu rayon sakini Sevinc Abbasova redaksiyamıza müraciət edib. Şikayətçi qeyd edib ki, ilin əvvəlində, Ağsuda baş vermiş məlum zəlzələdən sonra onlara məxsus Ağsu şəhəri, N.Tağızadə küçəsi ev 29 ünvanında yerləşən mənzilləri yararsız vəziyyətə düşüb.**

Bununla bağlı aidiyyəti qurumlar dəfələrlə gəlib araşdırma və qeydiyyat işləri aparsa da, vəziyyət dəyişilməz olaraq qalır: "Məlum zəlzələdən sonra digər sakinlər kimi bizim də mənzilimiz bərbad vəziyyətə düşüb. Evin divarlarında aralanma, tavanda çatlar var. Mənzilimiz təhlükəli vəziyyətdədir. Bununla bağlı olaraq bir neçə dəfə aidiyyəti qurumlara rəsmi müraciət etmişik. Dəfələrlə mənzilimizə gələrək vəziyyətlə yaxından tanış olublar, həm şifahi, həm də rəsmi olaraq bildirilib ki, zəlzələdən zərər çəkdiyi üçün mənzilimizin təmiri üçün müvafiq yer verilib. Lakin çox təəssüf ki, bu günə qədər çıxarılan qərarlar yerinə yetirilmir. Aidiyyəti qurumlardan xahiş edirəm, bu məsələnin həlli ilə bağlı bizə köməklik göstərsinlər".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 165 (7335) 8 avqust 2019

**Deputat, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, Azərbaycan-Amerika Birləşmiş Ştatları parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Səməd Seyidov "Yeni Müsavat"a geniş müsahibə verib. ABŞ-Azərbaycan əlaqələri, Ermənistan rəhbərliyinin son təxribatçı bəyanatları və torpaqlarımızın azad olunması imkanlarından bəhs edən söhbətimizi təqdim edirik:**



# "Kişisənsə, bunun arxasında dayan!"

## Səməd Seyidov: "Ermənistanın qurduğu, ancaq özünü çox açıq şəkildə göstərən tələyə düşmək olmaz"

***- Səməd bəy, ABŞ-ın Azərbaycana 100 milyon dollar məbləğində yardım ayırmaq qərarı erməniləri kifayət qədər narahat edib. Vaşingtonun Azərbaycanla bağlı qərarına müxtəlif prizmalardan yanaşılır. Sizdəki məlumat və ehtimallar nədən ibarətdir?***

- Bu, sadəcə, hansısa bir cizgi deyil. Bu, ermənilərin uzun illər beynəlxalq səviyyədə apardığı siyasətin yavaş-yavaş iflasa uğramasının cizgiləridir. Yəqin ki, siz bilirsiniz, biz bir müddət bundan əvvəl ABŞ-daydıq. ABŞ-da olanda elə məhz Konqresdə Beynəlxalq Əlaqələr Komitəsinin bununla bağlı dinləmələrində iştirak etdik, müzakirələri izlədik. Konqresmenlərlə görüşəndə konkret olaraq bəzi fikirləri də çatdırdıq. O fikirlərdən biri də bundan ibarət idi ki, Ermənistan ABŞ Konqresinə, ümumiyyətlə, ABŞ hökumətinə müraciət edərək Dağlıq Qarabağ üçün onlara pul ayrılmasını istəyib. Bunlar Dağlıq Qarabağda "minadan təmizlənmə işləri üçün" xüsusi yardım istəmişdilər. Yəni bu ad altında, özündə humanitar məqsədi ehtiva edən məsələ kimi müraciət etmişdilər. Sonra isə ermənilər özləri Suriyaya Ermənistan hərbçilərini göndərdilər ki, erməni qoşunları bu ölkədə minadan təmizləmədə - humanitar missiyada iştirak etsinlər. Biz də Amerikada bu sualı qaldırdıq. Amerikanlar da bu sualı qaldırdılar ki, sizin minadan təmizləmə humanitar missiyası ilə bağlı belə imkanlarınız varsa və siz Avropa İnsan Haqları Məhkəməsinin qərarı ilə "effektiv şəkildə Dağlıq Qarabağı idarə edirsiniz"sə, ona maliyyə, iqtisadi və bütün başqa yardımları göstərirsinizsə, başqa sözlə desək, işğal etmisinizsə, onda niyə Suriyaya minadan təmizlənmə ilə bağlı hərbçi göndərirsiniz, öz qoşunlarınız elə Qarabağda minadan təmizləməklə məşğul olsunlar da! Amma siz ora hərbi mütəxəssislərinizi ora göndərmirsiniz, ancaq bunun üçün Amerikadan pul istəyirsiniz. Eyni zamanda hərbçilərinizi Rusiya ilə bir yerdə Suriyaya göndərirsiniz. Bu, nə deməkdir? Ora ayırmağa pulunuz varsa, bura niyə vermirsiniz, pulunuz yoxdursa, Amerikadan niyə istəyirsiniz? Ona görə də hesab edirəm ki, ABŞ Dövlət Departamentində, Konqresində, Ağ Evdə bu məsələləri kifayət qədər başa düşən insanlar əyləşib. Onlar ABŞ-ın maraqlarını çox gözəl başa düşürlər.

***- Belə hesab etmək olarmı ki, sizin okeanın o tayına etdiyiniz səfər də Azərbaycan həqiqətlərinin yayılması və Azərbaycana maliyyə yardımının ayrılması ilə bağlı qərarın verilməsi üçün təkan rolunu oynayıb?***

- Söhbət yalnız bizim səfərdən getmir. Təbii ki, cənab prezidentin apardığı siyasətin nəticəsidir. Bu yaxınlarda bir neçə dəfə ABŞ və Rusiyanın baş komandanlığı Bakıda görüşməklə bağlı öz siyasi iradələrini ortaya qoymuşdular. Bundan başqa, bir müddət əvvəl Con Boltonun buraya gəlməsi, Azərbaycanın aktiv TAP və TANAP layihələrinə Qərbin müsbət münasibəti və dəstəyi... Yəni bu, kompleks bir məsələdir, hansısa bir səfərin nəticəsi deyil. Biz sadəcə bu məsələlərin canlı şahidi olduq. Təbii, biz də həqiqətləri çatdırmışıq. Ancaq bunu siz dediyiniz formada qiymətləndirmək həm təvazökarlıqdan uzaqdır, həm də reallıqdan. Biz hamımız öz yerimizdə işlərimizi görürük. Ancaq ümumi şəkildə Azərbaycanın siyasəti regionda həm Qərblə, həm Şərqlə, həm Şimal, həm də Cənubla cəmimi münasibətlərin qurulmasını tələb edir və bunun əsasında durur. Ancaq Ermənistan hamını aldatmaq niyyətini güdür.

***- Yeri gəlmişkən, Nikol Paşinyan Xankəndindəki çıxışında "Dağlıq Qarabağ Ermənistandır. Nöqtə" deməklə bütün dünyaya, beynəlxalq hüquqa meydan oxudu. Bununla bağlı nə demək olar?***

- Paşinyan iki gün əvvəl "Dağlıq Qarabağ Ermənistandır. Nöqtə" deyir, ancaq bir gün sonra Prezident Aparatının əməkdaşı bildirir ki, Paşinyan belə söz deməyib. Yəni deyib, ancaq siz bunu düz başa düşməmisiniz. Bəs biz bunu necə, hansı formada başa düşək? Yəni dünyada eyni sözün ikinci mənası varmı? Heç olmasa bəyanat verirsənsə, de ki, mən dəyərləri, "miatsum"u, daha nəyi nəzərdə tuturam. Amma sən konkret olaraq hətta nöqtəni də qoydun, dedin ki, "və nöqtə". Nöqtəni qoyursansa və bunu bəyan edirsənsə, ifadəyə görə üzr istəyirəm, kişisənsə, bunun arxasında dayan! Ancaq sabahkı gün özünü-özünü, öz katibin, öz işçin vasitəsilə təkzib etmək o deməkdir ki, sən hamını aldatmaq niyyətindəsən. Bu, bir. İkincisi, biləsiniz ki, Paşinyan populist siyasətçi olduğuna görə real məsuliyyəti heç vaxt boynuna götürmək niyyətində olmayacaq. Dağlıq Qarabağ məsələsi isə məsuliyyəti boynuna götürməyi tələb edir, bu məsuliyyəti boynuna götürməyə məhkumdur. Ancaq bundan qaçmaq üçün var gücü ilə Azərbaycanı provokasiyaya çəkir.

***- Əksəriyyət hesab edir ki, Ermənistan hakimiyyəti avantürist mövqeyi, təxribatçı davranışları ilə həm də Azərbaycana torpaqlarını geri qaytarmaq şansı yaradır. Bakı İrəvanın yaratdığı bu fürsətdən yararlanmalıdırmı, mənasız danışıqlara Paşinyanın təbirincə desək, nöqtə qoymalıdırmı, hərbi əməliyyatlara qərar verməlidirmi?***

- Mən sizə tam səmimi deyim ki, Paşinyan öz siyasəti ilə özünə nöqtə qoyur. Paşinyanın ikinci sətiraltı siyasəti məhz Azərbaycanı bu saat təxribata çəkməkdir və hansısa formada regionda provakativ siyasət aparaq, Azərbaycanı nəyəsə vadar etmək, həmçinin məsuliyyəti öz üzərindən atıb, Azərbaycanın üstünə yıxmaqdır. Ermənistanın nə siyasi, nə iqtisadi, nə hansısa başqa tərzdə gücü yoxdur ki, istədiyi siyasəti, istədiyi islahatları, yaxud dəyişiklikləri Ermənistanda, ya da işğal altındakı Dağlıq Qarabağda aparsın. Vaxt, zaman artıq Ermənistana və Dağlıq Qarabağ separatçılarına işləmir, bu, birmənalıdır! Məhz elə ona görə tez-tələsik belə festivallar, qıcıqlandırıcı sözlər, bəyanatlar verilir. Bax, Avropa Birliyinə getdi, nələrsə istədi, heç nə əldə edə bilmədi. ABŞ-da burnundan o qədər də ciddi yox, amma çox vacib nöqteyi-nəzərdən zərbə aldı ki, get, işinlə məşğul ol! Başqa istiqamətlər üzrə qonşu ölkələrdə Ermənistanın siyasəti provakativ, populist və məsuliyyətdən qaçmaq niyyətini özündə ehtiva edir.

### Milli Məclisin komitə sədri "Yeni Müsavat"a danışdı və maraqlı mətləblərə toxundu

***- Artıq erməni ekspertlər də Paşinyanın ciddi yanlışlıqlara imza atdığını etiraf edirlər və Azərbaycanın zərbə endirəcəyini proqnozlaşdırırlar. Bu mənada Azərbaycan beynəlxalq aləmə qəti mövqeyini elan edə bilərmi ki, artıq Ermənistan hakimiyyəti ilə danışmağın heç bir mənası qalmayıb və torpaqların azad olunmasına qərar veririk?***

- Məncə, Azərbaycan Hikmət müəllimin (PA rəsmisi Hikmət Hacıyev-E.P.) verdiyi bəyanatla öz mövqeyini çox düzgün vurğuladı. Yəni bundan sonra baş verəcək hadisələrlə bağlı məsuliyyət Ermənistanın üzərindədir, bu, birincisi. İkincisi, Paşinyanın bəyanatının nə məntiqi, nə də hansısa başqa bir təsiri və gücü ola bilməz. Üçüncüsü və ən əsası bu insan öz-özünü ifşa etməklə məşğuldur. Ona görə də hesab edirəm ki, bu sözləri eşitmək emosional nöqteyi-nəzərdən bizimçün nə qədər ağrılı olsa belə, yaxud onun Qarabağda rəqs etməsi, erməniləri oraya yığması insani nöqteyi-nəzərdən xoşagəlməz məsələ olsa belə, ancaq bu, güclülüyün yox, zəifliyin əlamətidir.

***- Amma siz də sualıma cavab vermədiniz. Hərb qərarı verilməlidirmi, yoxsa...***

- Mən bu məsələni bir də təkrar edirəm və mənim ciddi fikrimdir: Ermənistanın qurduğu və qurmaq istədiyi, ancaq özünü çox açıq şəkildə göstərən tələyə düşmək olmaz. Azərbaycan bu saat həm hərbi nöqteyi-nəzərdən güclənir, həm beynəlxalq səviyyədə nüfuzu artır, həm beynəlxalq səviyyədə təsir imkanları yüksəlir. Azərbaycanın mövqeyi daha yüksək səviyyədə qəbul olunur. Hər hansı bir məsələ ilə bağlı biz apardığımız siyasəti davam etdirməliyik ki, o, sirkə kimi öz qabını çatladaraq hamı üçün aydın olsun. Necə ki, ABŞ-ın, Avropa Birliyinin atdığı addım. Necə ki, Rusiyanın bəzi rəsmilərinin bu yaxınlarda "Paşinyan ikili oyun oynayır" məzmunlu bəyanatlarını eşitmişik və bundan sonra da eşidəcəyik.

***- ABŞ-ın Azərbaycanla bağlı qərarını şərh edən ekspertlərin bir yanaşması da bundan ibarətdir ki, İrəvana dirsək göstərən Vaşinqton bu yolla Azərbaycanı ələ almağa çalışır. Hesab olunur ki, bu, həm də Azərbaycan üzərindən Əfqanıstana həyata keçirilən daşınmalara görə verilən avansdır. Bu iddialarda həqiqət payı varmı?***

- Azərbaycanın bu gün gördüyü işlər kəmiyyətcə o dərəcədə geniş, əhatəli işlərdir ki, o, keyfiyyətcə Azərbaycanın siyasətini dəyişdirir. Azərbaycanın dediyim kimi, atıq TAP-ı, TANAP-ı, Bakı-Tiflis-Qarsı, neft kontraktlarının 2050-ci ilədək uzadılması, Qoşulmama Hərəkatı ilə bağlı ən yüksək səviyyədə keçiriləcək zirvə toplantısı, YUNESKO-da rolu, Azərbaycanın beynəlxalq səviyyədə təsir imkanlarının artması, dünyanın ən güclü mərkəzləri ilə normal, adekvat və Azərbaycan xalqının maraqlarının təmin olunması baxımından uğurlu siyasətin aparılması məhz sizin sualınıza cavab verir. Bu gün Azərbaycan regiondakı bəzi ölkələr kimi yox, artıq dünya üçün və dünya güclər, güclü aktorlar üçün hesablaşmağa və mövqeyinin nəzərə alınmasına məcbur edilən bir məmləkətə, bir dövlətə çevrilir. Ona görə də burada söhbət hansısa bir məsələdən getmir. Söhbət Azərbaycanın apardığı işlərin artıq beynəlxalq siyasətə təsir etmək gücündən gedir. Doğrudan da belədir. Merkel regiona gəlir, Ermənistan da gedir, Gürcüstana da, Azərbaycana da gəlir. Ancaq bütün müqavilələr Azərbaycanla bağlanır. Tusk Azərbaycana da gəlir, Gürcüstana da gedir, Ermənistana da, ancaq sazişlər Azərbaycanla bağlanır. Başqa misallar da çəkmək olar və bunların sayı çoxdur. Bu, ona dəlalət edir ki, bu gün regionun geosiyasi xəritəsinin formalaşdırılmasında ən aktiv rollardan birini oynayan Azərbaycandır. Təbii, buna görə də Azərbaycanla hesablaşırlar və onun mövqeyini nəzərə alırlar.

***- Bütün bunların nəticəsi olaraq torpaqlarımızın nə zaman azad edə biləcəyik?***

- Bir tarixi zərurət mövcuddur. O, mövcud tarixi zərurətin vaxtı gəlsin deyə, gündəlik ardıcıl işləmək lazımdır. Məncə, Qarabağı qaytarmaq, torpaqlarımızı işğaldan azad etmək üçün ordumuzun yüksəlişi ilə yanaşı, ordumuzun qüdrətinin artırılması ilə yanaşı, gördüyümüz işləri daha yüksək səviyyədə icra etmək lazımdır. Bu, bir. İkincisi də bununla yanaşı, dərk etmək lazımdır ki, müasir dünyanın öz danışıq tərzi, münasibətləri qurmaq tərzi mövcuddur. Çox sevinirəm ki, son zamanlar, xüsusilə də islahatlarla bağlı Azərbaycan iqtisadi göstəriciləri ilə yanaşı, məhz dünya tərəfindən qəbul olunan dili də mənimsəyərək, yüksək səviyyədə öyrənərək danışmağa başlayır.

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 165(7335) 8 avqust 2019

**Bakıda son günlər yenidən toz miqdarı artıb. Bu barədə sosial şəbəkələrdə də xeyli şikayətlər yazılır. İnsanlar hesab edirlər ki, tozun artmasının səbəbi ölkədə fəaliyyət göstərən daş karxanaları və aparılan söküntü işləridir.**

# Bakıda tozun artmasına səbəb daş karxanalarıdır-təhlükə

## **Ekoloq:** "Onların üzərində yüz illər öncədən qalma viruslar və xəstəliklər ola bilər"



Bəs əslində vəziyyət necədir?

Yada salaq ki, ötən il Ekologiya və Təbii Sərvətlər Nazirliyi daş karxanalarında reydlər keçirir, müasir avadanlıqla təchiz olunmayan, atmosferə hədsiz dərəcədə toz buraxan karxanalar barəsində tədbir görürdülər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf Mühit üzrə Milli Monitorinq Departamentinin direktoru Ramal Bağırov jurnalistlərə açıqlamasında bildirmişdi ki, araşdırmaların nəticələri göstərib ki, bir çox daş karxanalarının istismarçıları müvafiq icra hakimiyyətinin torpaq ayırmaya dair sərəncamı olmadan, ekoloji norma və qaydalara riayət etmədən fəaliyyət göstərir, təbiətə, ətraf ərazilərdə yaşayan sakinlərə böyük ziyan vururlar:

"Buna görə karxana sahiblərinə və istismarçılara qarşı cərimələr tətbiq olunub. Daş karxanalarında istifadə edilən avadanlıqlar müasir tələblərə cavab vermir. Daş karxanalarında hələ də ötən əsrin 70-ci illərindən qalmış avadanlıq və texnologiyadan istifadə olunur. Bu, olduqca acınacaqlı və narahatedicidir. Çalışırıq ki, onları yeni və müasir tələblərə cavab verən texnologiyalarla tanış edək ki, əhalini narahat edən bu ekoloji problemlər aradan qaldırılsın. Yeni texnologiyaların quraşdırılması üçün onlara vaxt verilib".

2018-ci ilin may ayında məlumat yayıldı ki, qanunsuz fəaliyyət göstərən 250 daş karxanasının fəaliyyəti dayandırılıb.

Lakin buna baxmayaraq, rəsmi rəqəmlərə görə, Azərbaycanda ümumilikdə 585 ədəd daş karxanası fəaliyyət göstərir. Onlar Xəzər, Qaradağ, həmçinin Abşeron, İmişli, Quba, Şəki, Qazax kimi rayonları əhatə edir. Xüsusilə də hazırda Qaradağ və Xəzər rayonlarında daş kəsimi sürətlənib. Bir məsələni də qeyd edək ki, qanunsuz karxanalara qarşı mübarizə aparıldığı ərəfədə ölkədə mişar daşının qiyməti bir neçə qəpik bahalaşmışdı. Belə ki, Qaradağ daşını 47-50 qəpikdən aşağı tapmaq müşkülə çevrilmişdi. Eyni zamanda nisbətən yüngül və yumşaq olan Türkan daşı da bahalaşmışdı. Lakin yay mövsümünün sonlarına doğru daşın qiymətində müəyyən ucuzlaşma var. Ekspertlər bildirirlər ki, əslində hazırda kubikin bahalaşması üçün heç bir əsas yoxdur. Çünki nə yanacaq, nə də elektrik enerjisinin qiymətində artım yoxdur...

Mövzuya qayıdaraq bildirək ki, Bakıda, yuxarıda da qeyd etdiyimiz kimi, söküntü-tikinti işlərinin aparılmasının da tozun artmasına səbəb olduğu söylənilir. Belə ki, hazırda şəhərin mərkəzinə yaxın ərazilərdə qəzalı vəziyyətdə olan binalar sökülür, sakinlərə müvəqqəti kirayə mənzillərdə yaşamaları üçün şərait yaradılır. Həmin binaların yerində isə Nazirlər Kabinetinin müvafiq sərəncamına uyğun olaraq hündürmərtəbəli binalar ucaldılır. Köhnə binanın sakinlərinə yeni tikilidən mənzil verilir. Tikilinin qalan mənzilləri isə satışa çıxarılır.

**"Yeni Müsavat"a danışan ekoloq Telman Zeynalov bildirib ki, əslində Bakıda daş karxanalarında qalxan toz kifayət qədər təhlükəlidir. Ekspertin fikrincə, bu cür məsələlərə qeyri-ciddi yanaşmaq böyük fəlakətlərə səbəb ola bilər:** "Məlum olduğu kimi, karxanalar qədim qayalıqların üzərində salınıb. Orada mişar daşları deyilən daşlar kəsilir, kubik halına salınır, sonra isə yük maşınlarına yığılaraq ölkənin müxtəlif yerlərinə daşınır. Əslində bu daş təbəqəsi yüz illər boyu formalaşıb. Deməli, onların üzərində yüz illər öncədən qalma viruslar, mikroblar, xəstəliklər ola bilər. Karxanalarda daşlar kəsilən zaman ətrafa dəhşətli dərəcədə toz dumanı yayılır. Bu toz dumanı ilə müxtəlif xəstəliklər də yayıla bilər. Ona görə də karxanalara nəzarət gücləndirilməlidir. Karxana işlədən adam özü orada xüsusi qurğu quraşdırmalıdır. Hansı ki, həmin qurğu tozu çəkir, ətrafa yayılmağa qoymur. Onun üzəri də möhkəm qapadılır və çəkilən toz ərazidə başqa bir yerə yığılır. Bu gün görürük ki, karxanalarda belə bir sistem quraşdıran yoxdur. Doğrudur, karxanaların bir qismi yaşayış yerlərindən aralıda yerləşir. Ancaq külək qalxdığı zaman onun hansı məsafədə olduğu fərq etmir. Ətrafa toz dumanı yayılır ki, bu da yaşayış yerlərinə də zərər verir".

**❑ Əli RAİS, "Yeni Müsavat"**

# Azərbaycanlı həkim xərçəngi tam sağaltdığını iddia edir - şok!



## **Psixoterapevt Paşa Yaqub:** "Dünyanın bəlasına çevrilən bu xəstəlik əslində neqativ enerjidən yaranır"

**Bu günlərdə azərbaycanlı psixoterapevt Paşa Yaqubun "Xərçəngdən belə qurtuldum" adlı kitabının işıq üzü gördüyü barədə məlumat yayıldı. Məlumatda bildirilir ki, qeyd olunan kitabda psixoterapevtin xərçəng xəstəliyindən sağaltdığı xəstələrlə müsahibələr və onların sağalmasını təsdiq edən müayinələrin nəticələri daxil edilib. Kitabda həmçinin müxtəlif xəstəliklərin elmə məlum olmayan sirləri araşdırılır və müalicə yolları göstərilir.**

Qeyd edək ki, dünyanın bəlasına çevrilən xərçəng xəstəliyi son illərdə artıq Azərbaycanda da sürətlə artmaqdadır. Ən təəssüfedici isə odur ki, xəstəlik artıq gəncləşməyə, hətta uşaqlar arasında da yayılmağa başlayıb. Statistik məlumatlar da onu göstərir ki, əgər bundan əvvəl gənclər arasında xərçəngin dinamikasında artım narahatlıq doğururdusa, uşaqlarda da artıq bu xəstəliyin aşkarlanması həyəcan siqnalı verməkdədir.

Ekspertlərə görə, xərçəngin artması və "cavanlaşması"na daha çox bölgələrdə rast gəlinir. Xəstəlik əsasən uşaqlarda tənəffüs yollarında, qadınlarda mədədə və süd vəzilərində, kişilərdə isə mədə və ağciyərlərdə aşkar edilir.

Mütəxəssislər qeyd edirlər ki, dünyada xərçəngin sürətlə yayılmasına səbəb ətraf mühitin çirklənməsi, təbii qidaların azalması, smart telefonlardan, internetdən çox istifadədir. Bu, bir faktdır ki, indi əksər evlərdə günün 24 saatı Wi-Fi işləyir və insanlar 24 saat şüalanmış olurlar. Qeyd olunan faktlarla yanaşı, digər amillər də var. Məsələn, rəngli içkilər, içərisinə qatıldığı bilinməyən kolbasalar və sairə qidalar son nəticədə xərçəng xəstəliyinin artmasına səbəb olur.

Beləliklə, dünyanın bəlasına çevrilən xərçəng xəstəliyinə artıq çarə tapılması və bu icadın azərbaycanlı psixoterapevtə məxsus olması nı əksəriyyət heyrətlə qarşılayıb.

**Adıçəkilən psixoterapevt Paşa Yaqub "Yeni Müsavat"a danışdı:** ""Xərçəngdən belə qurtuldum" adlı kitabım 100 səhifədən ibarətdir. Kitabda əsasən sağaltdığım xəstələrin müsahibəsi yer alıb, xəstəliklə bağlı onların başına gələn və sağalma proseslərindən söz açılır. Artıq 5 ildir bu işlə məşğulam və bu günə qədər 5-6 xəstəni tam olaraq xərçəng xəstəliyindən qurtarmışam. Digərlərinin xəstəliyini isə yüngülləşdirmişəm".

**Paşa Yaqub qeyd edib ki, sağaltdığı xəstələrdə bir daha xərçəng xəstəliyinin əlamətləri görünməyib:** "Hətta bir dəfə bir xəstəmi tam sağaltdıqdan sonra Ankaraya gedərək, yenidən müayinə keçmişdi. Oradakı həkimlər heyrət etmişdilər ki, xəstəlik necə tam sağala bilər. Qeyd edim ki, dünyanın bəlasına çevrilən xərçəng xəstəliyi əslində neqativ enerjidən yaranır. Bütün neqativ enerjilər bədəndə toplaşdıqdan sonra orqanizmin hansısa hissəsində özünü göstərir. Məsələn, birində bağırsaq hissəsində, digərlərində cinsi orqanlarda və yaxud digər yerlərdə şiş əmələ gəlməyə başlayır. Mən psixoloji prosedurlarla həmin şişi aradan götürür və müalicə edirəm və bir daha yaranmır. Tibbi yolla bu xəstəliyi müalicə edəndə isə həmin şiş kəsilərək götürülür, amma enerji həmin yerdə qalır və şiş yenidən dirçəlməyə başlayır. Bu, sanki ağacı kəsirsən, amma gövdə yerində qalır və zamanla həmin gövdə yenidən çiçəklənməyə başlayır, ona bənzəyir. Yeni bədəndə neqativ enerji qalanda mütləq şiş yenidən başlayır. Mənə müraciət edən xəstələr arasında dəfələrlə əməliyyat keçirənlər var. Xəstəlikdən tam qurtula bilməyənlər prosedurlarım sayəsində buna nail olublar, xərçəng prosesi dayanıb".

**Psixoterapevt prosedur sirlərindən də söz açdı:** "Mən xəstələrimə enerji ötürməklə onları müalicə edirəm. Ümumiyyətlə, Mendeleyev cədvəlinin sirrini bilirəm, hansı ki, başqa alimlər bundan xəbərsizdir. Mendeleyevin sağlığında onun cədvəlində bir neçə element də olub ki, sonradan həmin elementlər silinib. Məsələn, cədvəldə "sıfır qrupu" olub, hansı ki, bu gün cədvəldə həmin element yoxdur. Yeni araşdırsanız görərsiniz ki, 1906-cı ilə qədər olan kimya kitablarında həmin element olub, indi isə yoxdur. Ona görə də kimya elmi yarımçıq qalıb, onunla bərabər də tibb elmi. Mənim aləmimdə sağalmayan xəstəlik yoxdur. Yeni tibb elmində bir sıra xəstəliklər var ki, onlarda dünyada sağalmaz xəstəlik kimi qeyd edilsə də, mən onları tam müalicə edirəm, sadəcə, buna səbir lazımdır ki, prosedurları sona qədər aparılsın. Bütün xəstəliklərin müalicəsi qeyd etdiyim elementdə var".

**❑ Xalidə GƏRAY, "Yeni Müsavat"**

# AYB sədrliyi uğrunda mübarizə qızışdı - şok açıqlamalar, ittihamlar

## **Qan Turalı:** "İdeya, yanaşma dəyişməsə, Orxan Pamuk da AYB sədri olsa xeyri yoxdur"

## **Əkrəm Əylisli:** "AYB sədrliyinə Anarı mən təklif eləmişdim, bu günə kimi o səhvimi özümə bağışlamıram"

## **Qəşəm Nəcəfzadə:** "Xalq və hakimiyyət Anarı dəstəkləyir, mən də onun namizədliyini dəstəkləyəcəm"



**Bu il Azərbaycan Yazıçılar Birliyinin (AYB) XIII qurultayı keçiriləcək. Keçiriləcək, amma sədrin kim olacağını seçkilər müəyyən etməlidir. Bu da bəzi gənc ədibləri həvəsləndirib. Onlar AYB sədri Anarın yerinə seçilmək istəyirlər. Lakin "köhnə qvardiya" Anarın bu posta yenidən seçilməsinin tərəfdarıdır. Azərbaycan Yazıçılar İttifaqı 1934-cü il iyunun 13-də Bakıda yaradılıb. İlk rəhbəri Məmmədkazım Ələkbərli olub. Sonra Seyfulla Şamilov, Rəsul Rza, Süleyman Rəhimov, Səməd Vurğun, Mirzə İbrahimov, Mehdi Hüseyn, İmran Qasımov, İsmayıl Şıxlı kimi yazıçı-şairlər AYİ sədri olublar. 1987-ci ildən quruma Anar sədrlik edir. 32 ildir bu vəzifəni tutan Anar AYB-də ən uzunmüddətli sədrdir.**

**Qurumun birinci katibi, xalq şairi Fikrət Qoca** Modern.az-a bildirib ki, gənclərin bu prosesdə aktivləşməsi yaxşıdır, amma həyatda olduğu kimi, həmin mərama çatmalıdırlar: "Təki gənclər sədr seçilsinlər, kim nə deyir ki? Hamı sədr ola bilər. Mən özüm Anara səs verəcəm. Anar gedəndə mən ondan bir saat da qabaq gedəcəm. Çünki mən yaşca Anardan böyüyəm. Zamanı gələndə gedərəm. Amma AYB bizim evimizdir. Evdən bu saat qaçmalıyam?"

**Şair Emil Rasimoğlu AYB sədrliyinə namizədliyini irəli sürəcəyini elan edib:** "Bu o demək deyil ki, gənclərin hansısa biri sədr seçildikdə digərləri ona qarşı, şəxsən sədrlik postuna görə kütləvi şəkildə etiraz edəcək və ya haçansa özünün sədr olmasını gözləyəcək. Bu seçkidir, seçki! Seçkidə seçilirsən, təyin olunmursan ki, narazılıq edəsən. Fikrət Qoca indidən artıq Anar müəllimi namizəd kimi görür. 80 yaşı ötmüş bir ziyalının digər 80 yaşı ötmüş bir ziyalıya dəstək olmasına ehtiyac varmı?! Axı nə məcburdur? Olmazmı ki, Fikrət Qoca da, elə Anar müəllim də gəncləri dəstəkləyib, onları namizəd görələr?"

**Gənc şair Fuad Cəfərli də namizədliyini elan edib və digər yazarlar da prosesə qoşulublar. AYB Gənclər Şurasının üzvü, şair Tural Turan da bildirdi ki, 13-cü qurultayda AYB sədrliyinə namizədliyini irəli sürəcək:** "Hazırkı sədr və onun komandası gənc yazarların beynəlxalq aləmdə, dünyada tanıdılması üçün heç nə etməyib. Xaricdə hər hansı tədbir olarsa üç-beş eyni adamlar gedir. Azərbaycanın həmin adamlardan başqa istedadlı yazarları yoxdur? Var. Amma kölgədə qalırlar. Prezident təqaüdü istisna olmaqla, gənclər üçün heç nə edilməyib.

Xarici ölkələrdə kitabları çap olunmayıb. Halbuki prezident 800 min manat bir, daha sonra da 3 milyon manat ayırıb. Bəs bu pullar hara xərclənib? Hesabatı da verilməyib. Bütün bunları nəzərə alaraq AYB-də yeni idarəetməyə ehtiyacın olduğunu görürəm".



Qan Turalı



Əkrəm Əylisli



Qəşəm Nəcəfzadə

**Yazıçı Qan Turalı "Yeni Müsavat"a bildirdi ki, dünyanın hər yerində AYB kimi qurumlar fəaliyyət göstərir:** "Bu cür yazıçılar ittifaqlarına hər zaman ehtiyac var. Türkiyənin özündə də yazıçılar birlikləri var. Sadəcə, Azərbaycanda bu qurum fəaliyyətini günün tələbləri istiqamətində qurmalıdır. Biz daha çox görürük ki, AYB yazıçıların sosial müdafiəsi ilə məşğuldur, nəinki ədəbiyyatın özü ilə. Yaxşı olar ki, bir nəşriyyat açsın, kitab çapı üçün real addımlar atsın. Amma bu istiqamətdə heç bir iş görmürlər. Ona görə də qurultayda bu məsələlər ortaya çıxarılmasa, addımlar atılmasa sədr postunda kadr dəyişikliyinin bir əhəmiyyəti qalmayacaq".

Qan Turalı hesab edir ki, ideya, yanaşma dəyişməsə, Orxan Pamuk da AYB sədri olsa xeyri yoxdur.

**Yazıçı Əkrəm Əylisli "Yeni Müsavat"a bildirdi ki, 80 yaşdan sonra vəzifə haqda düşünmək insanın öz-özlüyündə mənəvi yoxsulluğun göstəricisidir:** "Çünki 80 il yaşayan bir adam vəzifə haqda düşünə bilməz. Bu yaşda adamın başqa qayğıları olur, hansı səhvlərə yol verdiyini saf-çürük edir, axirət dünyasını necə hiss etdiyini düşünür, bütün bunları daxili sarsıntılarla yada salır.

Ona görə 80 yaşdan sonra insan bu dərəcədə mənfəətpərəst ola bilməz. Ümumiyyətlə, böyük yazıçıların həyatında belə bir şey olmayıb".

**Ə.Əylisli qeyd etdi ki, SSRİ məkanındakı yazıçılar 70 yaşdan sonra rəhbər vəzifədə olmayıblar:** "Hətta bu vəzifədə uzun müddət oturanlar da, məsələn, Türkmənistanda Berdı Kerbabayev, Qazaxıstanda Muxtar Auezov... Məndə elə şübhə oyanır ki, indi vəzifədən əl çəkməyən AYB rəhbərləri nə vaxtsa yaradıcılığa qəlbən vurğun insanlar olublar. Əgər belə olsaydı, bu adamların bioqrafiyası hədsiz dərəcədə bəsit, yoxsul olardı. 32 il bir postda oturmaq və bununla fəxr eləmək mənə qəribə gəlir. Amma hər hansı gənc yazıçı bir-iki kəlmə AYB-nin ünvanına düz söz deyəndə onu nəinki AYB-nin, az qala məmləkətin düşməni elan edirlər. Mənim AYB-yə münasibətimdə qərəz, qısqanclıq axtaranlar bilir ki, heç vaxt vəzifəpərəst olmamışam. Bütün vəzifələrdən özüm getmişəm, yalvarsalar da qayıtmamışam. İkincisi, bir yaradıcı təşkilatda 5 ildən sonra hava tapırsansa, o hava süni və sintetikdir, sağlam insan ciyərinin qəbul edə bilmədiyi natəmiz havadır".

**Ə.Əylislinin sözlərinə görə, AYB-də tarix boyunca heç vaxt belə qeyri-demokratik şərait olmayıb:** "Nizamnaməyə riayət edilmir. Onsuz da nizamnaməni də özləri yazırlar, lazım gələndə istədikləri formada dəyişirlər. O vaxtlar AYB-də plenium olurdu, indi bu da yoxdur. Rəhmətlik Sabir Əhmədli deyirdi ki, daha Yazıçılar İttifaqı yoxdur, "katiblər ittifaqı" var. İntəhası, bu gün bir dəstə cığal da var ki, əslində onların yazıçılığa, yaradıcı mühitə dəxli yoxdur, özlərindən razı adamlardır, yeganə məqsədləri AYB-dən nəsə qoparmaqdır. Biri təqaüd, biri ev istəyir. Həmin adamlara istədikləri verilməyəndə AYB-yə atəşin hücuma keçirlər. Bax, AYB-nin bunlardan təmizlənməsi hamının ürəyincə olardı. AYB-nin fəaliyyətinə birtərəfli baxmaq lazım deyil. Burada yaradıcılıq ab-havası yaxşı olsaydı neqativ özü buxarlanıb gedərdi. İndi AYB-yə qəbul olunanlar üçün üzüyolalıq əsas keyfiyyət sayılır. Axı Yazıçılar Birliyi pioner düşərgəsi deyil.

Bu gün həqiqi istedadı olanlar var ki, AYB üzvü olmaqdan utanırlar. Niyə utanırlar? Bu məsələ hökmən araşdırılmalıdır. O vaxtı AYB sədrliyinə Anarı mən təklif eləmişdim. Bu günə kimi o səhvimi özümə bağışlamıram. Növbəti qurultayda hamının qarşısında çıxış elədim, İsmayıl Şıxlıdan üzr istədim, seçimimdə səhvə yol verdiyimi boynuma aldım və qurultayı tərk elədim. Ondan sonra AYB-nin qapısından içəriyə heç vaxt ayaq qoymadım..."

**AYB İdarə Heyətinin üzvü, "Azərbaycan" jurnalının poeziya şöbəsinin müdiri, şair Qəşəm Nəcəfzadə "Yeni Müsavat"a dedi ki, qurultayın 2020-ci ildə olması gözlənilir:** "Bu barədə dəqiq tarixi rəsmilər daha yaxşı bilirlər. Amma gələn il olacağı ehtimalı var". **Q.Nəcəfzadə gənc yazarların namizədliyini irəli sürməsini normal qarşıladı:** "Hər qurultay ərəfəsində olur, sonra qaçıb gizlənirlər. Deyirlər ki, gənc yazar sədr olsa yeni nəfəs gələr. Amma bu, yaşla bağlı deyil. Elə gənc var ki, qocadır. Elə qoca var ki, müasirdir. Anar müəllim hər cəhətdən müasirdir, xalq və hakimiyyət onu dəstəkləyir. Mən də Anar müəllimə dəstək vermək fikrindəyəm".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# "Sabahın alimləri" müsabiqəsi keçiriləcək

**Təhsil naziri Ceyhun Bayramov "Sabahın alimləri" IX Respublika müsabiqəsinin keçirilməsi haqqında əmr imzalayıb.**

Bu barədə Təhsil Nazirliyindən məlumat verilib.

Bildirilib ki, əmrə əsasən, 2020-ci il 11-13 fevral tarixlərində İntel İSEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisi çərçivəsində "Sabahın alimləri" IX Respublika müsabiqəsi keçiriləcək.

Əmrdə bildirilir ki, 12 oktyabr 2019-cu il tarixindən etibarən şagirdlər www.sabahinalimleri.edu.az internet səhifəsinə daxil olaraq onlayn qeydiyyatdan keçməlidirlər.

Əmr ölkəmizdə fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin IX-XI siniflərində təhsil alan şagirdlərin elmi axtarışlara sövq edilməsi, onların elmi və yaradıcılıq fəaliyyətinin stimullaşdırılması, elmi tədqiqat işinə meyli olan istedadlı şagirdlərin aşkar edilməsi, həmçinin yüksək elmi tədqiqat nəticələri əldə etmiş məktəblilərin seçilib ABŞ-da keçirilən İntel İSEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisinə göndərilməsini təmin etmək məqsədi daşıyır.

# Həcc ziyarətində olan azərbaycanlı zəvvarların səhhəti yaxşıdır

**Səudiyyə Ərəbistanında Həcc ziyarətində olan azərbaycanlı zəvvarların səhhəti yaxşıdır.**

"Report"un məlumatına görə, Məkkədə olan zəvvarlar avqustun 9-da Ərəfat dağına çıxacaqlar.

Avqustun 11-də bütün zəvvarlar qurban kəsəcəklər. Avqustun 11-12-13-də isə "Şeytan daşlama" mərasimi icra olunacaq.

Avqustun 22-dən 26-na qədər isə Azərbaycana dönüş başlayacaq. Zəvvarlar üçün AZAL milli aviaşirkətinin 6 təyyarəsi ayrılıb.

Qeyd edək ki, bu il Azərbaycandan Həcc ziyarətinə getmək üçün 1400 (ötən il 1440) nəfərlik kvota ayrılıb. Həcc ziyarətinin qiyməti isə 4225 ABŞ dolları (ötən il 4150 dollar) təşkil edir.

YENİ MÜSAVAT
N 165 (7335) 8 avqust 2019



# Ötkəm danışan baş nazir və kütləvi hiddət

Xalid KAZIMLI

**Dönüb-dolaşıb sıfır nöqtəsinə gəlirik və hər dəfə təəccüblənir, hiddətlənirik. Erməni siyasətçi və hərbçilərinin hər iddialı danışığı, sərsəm bəyanatı bizi özümüzdən çıxarır.**

İnsanlarımızın Qarabağ məsələsinə bu sayaq həssaslığı əslində normal və alqışlanasıdır. Bu, onu göstərir ki, biz əzəli torpağımız olan Qarabağı unutmamışıq və onu düşmənə güzəştə getməyi düşünmürük. Hətta ömründə o torpağı görməyən 25-30 yaşlı gənclər də erməni liderlərin sərsəm danışıqlarına emosional reaksiya verirlərsə, demək, "yaddan çıxdı Qarabağ" şivəni qoparmaq yersizdir.

Bizim dönüb-dolaşıb gəldiyimiz sıfır nöqtəsi isə odur ki, düşmənə qarşı bu qədər nifrət və hiddətə rəğmən Qarabağda hərbi əməliyyatlara, daha dəqiqi, müharibəyə başlamamağımızın səbəbi 20 və 10 il öncə nə idisə, yenə də odur, dəyişməyib.

İndiyə qədər bu cür açıqlamalar və kütləvi hiddətlənmələr çox olub, hələ bundan sonra da olacaq. Çünki Ermənistan dövlətini, separatçı "DQR" rejimini idarə edənlər, klişe ifadə ilə desək, burunları ovulmayınca, güclü zərbə almayınca, bu provakativ ritorikalarını davam etdirəcəklər.

O dövlət və onun himayə etdiyi separatçı vilayət bizə düşməndir, sülhə gəlmək fikirləri yoxdur və gedişat göstərir ki, olmayacaq.

Xatırlayırsınızsa, Nikol Paşinyan hakimiyyətə yeni gəldiyi vaxtlarda özünü "sülh göyərçini" kimi aparırdı və onun səmimiyyəti şübhə doğurmurdu. Hiss olunurdu ki, adam ölkəsinin hansı girdabın dibində olduğunu başa düşür və onun bu girdabdan çıxması üçün düşmənçilik apardığı qonşularla münasibətini qaydaya salmasını yeganə çıxış yolu sayır.

Paşinyanın bir sıra bəyanatları, atdığı addımlar onun Qarabağ münaqişəsi məsələsində sələfi Sərkisyandan fərqli, konstruktiv mövqe tutacağına işarə verirdi.

Ancaq o, yavaş-yavaş dəyişdi və indi özünü Sərkisyandan, Köçəryandan daha artıq Qarabağpərvər kimi aparır. Ona görə ki, Paşinyan buna məcburdur. İndi o, Ermənistanı girdabın dibindən çıxarmaq dərdi çəkmir, öz hakimiyyətinin uçuruma getməsinin qarşısını almağa çalışır.

Onu bu duruma erməni maksimalizmi və aqressiyası gətirdi. Ermənistan ictimaiyyəti bütövlükdə götürsək, heç bir məsələdə qarşısındakına güzəşt getməyi sevməyən, buna hazır olmayan toplumdur. Paşinyan "sülh çağırışları" etdikcə gözdən düşdüyünün fərqinə vardı, valın o biri üzünü çevirib militarist olmağa qərar verdi.

Göründüyü kimi, hazırkı baş nazir Qarabağa Sərkisyandan və Köçəryandan da tez-tez gəlib-gedir, onlardan daha barışmaz, ifrat populist çıxışlar edir. Onun Qarabağdakı hərbçilərdən, ümumiyyətlə, Qarabağın erməni icmasından beli bağlı deyil, onlardan daima təhlükə gözləyir.

O, bir erməni millətçisidir. Zatən, Paşinyan gerçək demokrat, əsl liberal olsaydı, hakimiyyətə gələ bilməzdi. Çünki Ermənistan cəmiyyəti bir liberal-demokratı hamiyyətə gətirəcək tutumda deyil. Onun əsas favoriti hələ də millətçilər, qonşulara, ətraf dünyaya aqressiv iddialar irəli sürən siyasilərdir.

Belə bir durumda hərbi aqressiyaya məruz qalaraq zərərçəkən tərəf olduğumuza görə bizim emosional ovqata qapılmağımız təbiidir. Ancaq kütləvi şəkildə hiddətlənərkən reallıq hissini itirməmək lazımdır. Bu təkbətək döyüş deyil ki, azərbaycanlı güləşçi, cüdoçu, boksçu tatami üzərinə, rinqə çıxıb erməni rəqibini məğlub etsin (bildiyiniz kimi, bu sayaq yarışmalarda yüzdə 95 halda bizim idmançılarımız qalib gəlir). Bu, siyasətdir və onun çoxlu yazılmış və yazılmamış qayda-qanunları var.

Bu vəziyyətdə "biz güclüyük, basaq, gedək", "hücum edib Xankəndini götürək", "Paşinyanın dediyi bizə söyüşdür, cavabını sərt şəkildə, hərbi yolla verməliyik" kimi bəyanatlar qulağa xoş gələ bilər, amma bu kimi məsələlərdə alində informasiyası çox olanlara, durumu hərətərfli analiz edənlərə, gerçəklikləri bütün çılpaqlığı ilə bilənlərə qulaq asmaq lazımdır.

Paşinyan və onun kimi danışanlar bilmirlər ki, dostluqdan-qardaşlıqdan, sülhdən, əski günlərə dönməkdən danışanda, biz yumşalır, hətta sıyılırıq, amma bu cür hikkəli, ötkəm ifadələr işlədəndə biz yarasının gözü qoparılmış kimi olur və hiddətlənirik. Bu ortamda sülh söhbəti torpağa gömülür.

Bir də hər dəfə bir erməni o tərəfdən bəri banlayanda burda döyülmüşlük, əzilmişlik kompleksinə qapılmaq, bir-birimizi ittiham etmək lazım deyil. Ermənilərin Qarabağı bizdən kimin əliylə qopardığını biz də bilirik, özləri də. Müharibə hələ bitməyib.

# Partiya sədri bacısı oğlunun həbsindən danışdı

**ADP sədri Sərdar Cəlaloğlunun bacısı oğlu, Bakunews.az-ın təsisçisi Mirkənan Seyidov məhkəmə zalında həbs olunub. M.Seyidov saytın əməkdaşı Cəlal Məmmədovla birlikdə Bakı Ağır Cinayətlər Məhkəməsində mühakimə olunurdu. Onlar Cinayət Məcəlləsinin 182-ci (hədə-qorxu ilə tələb etmə) maddəsi ilə təqsirli biliniblər.**

İttihama görə, M.Seyidov və C.Məmmədov paytaxtdakı bir sıra kafe və masaj salonlarını idarə edən Mehman Həsənovu biabır edəcək məlumatlar yaymaqla hədələyib, pul alıblar. İttihamda bildirilir ki, onlar M.Həsənovdan üç dəfə 400 manat pul alıblar. Növbəti dəfə 1000 manat tələb edəndə isə M.Həsənov polisə şikayət edib. Məhkəmənin hökmü ilə M.Seyidova 4 il 11 ay 28 gün, C.Məmmədova 5 il 3 ay həbs cəzası verilib.



**Sərdar Cəlaloğlu:** "Bir sübutları, faktları yoxdur, amma..."

M.Seyidov və C.Məmmədov ittiham üzrə özlərini təqsirli bilmədiklərini, ittihamda yazılanlarla razılaşmadıqlarını bildiriblər. Bu iş üzrə zərərçəkmiş qismində tanınan Mehman Həsənov özü də bir müddət əvvəl əxlaqsızlıq yuvası saxlama ittihamı ilə həbs olunub.

**Sərdar Cəlaloğlu deyir ki, bacısı oğlu ilə bağlı hələ ki ilkin məhkəmənin qərarı var. Bunun apelyasiya, ali instansiya məhkəmələrinin də qərarları olacaq.** "Qərar çıxarılıb, amma o demək deyil ki, qərar ədalətlidir. Hər halda, ədalətli qərar çıxarılar. Günahı varsa, gedib cəzasını çəkər, yoxdursa, bəraət verib azad edərlər".

**S.Cəlaloğlu deyir ki, bacısı oğlunun işi üzrə proses 1 ildən artıqdır ki, davam edir. Həmin müddətdə bacısı oğlu Mirkənan Seyidov dəfələrlə ailə üzvlərinə, anasına məlumat verib ki, məhkəməni əsassız yerə uzadırlar:** "İş üzrə fakt, sübut yoxdur. Sadəcə, adamı cəlb ediblər və məsələni uzada-uzada gediblər. İşdə başqa nüanslar da var. Biz hazırda bunları araşdırırıq".

**Sərdar Cəlaloğlu deyir ki, Mirkənan Seyidovun həbsinin arxasında kimlərin dayandığı haqda təxminləri, bilgiləri var:**

"Mirkənanın 4 övladı var. Ən böyüyünün 9 yaşı var. Özü 2-ci qrup əlildir. Mirkənan nə qədər ağır cəza törədib ki, yüngülləşdirici halların heç biri nəzərə alınmayıb? Məhkəmə fikirləşmir ki, 2-ci qrup əlil olan Mirkənanın 4 azyaşlı uşağını kim saxlayacaq? Cinayət Prosessual Məcəllənin yüngülləşdirici hallarla bağlı konkret maddələri var. Hakim ittiham üzrə mümkün olan ən ağır cəzanı təyin edib. Hakim qərəzli deyilsə, niyə onun əlil olmasını, 4 övladının himayəsində olduğunu nəzərə almayıb?"

**Sərdar Cəlaloğlu deyir ki, Azərbaycanda hər kəs masajxanaların əslində hansı fəaliyyətlə məşğul olmasını bilir:** "Dəfələrlə masajxanalarda olan durumla bağlı saytlarda videolar yayılıb. Orada nə oyunlardan çıxırlar, bunu bilməyən yoxdur. İndi jurnalisti tutublar ki, niyə bu haqda yazır? Heç material da onun özünün olmayıb, başqa bir saytdan götürüb yayımlayıb. Həmin material üzrə araşdırma aparıb cinayət işi başlamaq, günahkarları cəzalandırmaq əvəzinə, cinayət haqda məlumat verən şəxsi həbs edirlər. Demək istəyirlər ki, yazılanlar yalandır? Bütün masajxanalar, hotellər əxlaqsızlıq yuvası deyil? Bunu Azərbaycanda bilməyən var? İki gündən bir ərəblər hotellərdə ölür. Səbəbi bilməyən var? Hotellərdə oğurluqlar, quldurluqlar olur, bu haqda Daxili İşlər Nazirliyi də rəsmi məlumatlar yayır. Bu da masaj salonları ilə bağlı götürüb bir yazını istinadla verib. Bundan sonra barəsində cinayət işi başlayıblar, şər atıblar ki, gəlib bizdən pul istəyib. Özü də başqa adamın onun adından pul istəməsini deyirlər. Bir sübutları, faktları da yoxdur, amma götürüb belə bir qərar veriblər. Çalışacağıq ki, digər instansiyalarda məsələni araşdıraq".

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Təqaüdə göndərilən hakim DSMF-ni məhkəməyə verdi

## Ənvər Seyidov hesab edir ki, onun pensiyası düzgün hesablanmayıb

**Ölkəni silkələyən cinayətlərə imza atmış bir qurumun sabiq şefi Eldar Mahmudova mədhiyyə məktubları yazan Ənvər Seyidov təqaüdünün azlığından narazıdır.**



Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi postundan təqaüdə göndərilən Ənvər Seyidov Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunu məhkəməyə verib. Hesab edir ki, onun pensiyası düzgün hesablanmayıb. Bu ilin martında onun 70 yaşı tamam olandan sonra hakimlik fəaliyyətinə xitam verilib. Ənvər Seyidov işdən çıxandan sonra pensiyasının çox artacağını gözləyib. Amma gözlədiyi kimi olmayıb. Ona görə fondu məhkəməyə verib.

Ənvər Seyidovun adı daha çox yaddaşlara sifarişli hökmlərə imzası atması, ittiham üzrə günahsız olduqlarını bildiyi insanları həbsə yollaması ilə qalıb. Məlumatda deyilir ki, məşhur hakimin iddiasına hələlik baxılıb qərar çıxarılmayıb. Ə.Seyidovun son iş yeri Bakı Ağır Cinayətlər Məhkəməsi olub. O, əvvəllər Zaqatala və Cəlilabad rayon məhkəmələrinin hakimi, Cəlilabad Rayon Məhkəməsinin sədri vəzifəsində də işləyib.

2015-ci ildə üzə çıxan məlum məktubunu Ənvər Seyidov "Səid Dadaşbəylinin dəstəsi" işi kimi mediada tirajlanan cinayət işi ilə əlaqəli Eldar Mahmudova imzalamışdı. Həmin məktubunda Ə.Seyidov saxtalığına kimsənin şübhə etmədiyi ittihama əsaslanaraq 16 Azərbaycan gəncini, savadlı və ölkəni xaricdə təmsil etmək iqtidarında olan vətəndaşları həbsə yollamasını yazır, gəncləri həbsə alan Antiterror Mərkəzinin rəhbərliyi də daxil olmaqla, əməkdaşların mükafatlandırılmasını istəyirdi. Halbuki hakimin belə bir məktub yazması qanunda nəzərdə tutulmayıb. Əslində Ənvər Seyidov Eldar Mahmudova gəncləri qanunsuz həbs edərək işgəncələrə məruz qoymuş əlaltılarının cəzalandırılması, gələcəkdə belə halların qarşısının alınması üçün məktub yazmalı, prokurorluğa isə cinayət işi başlanması üçün təqdimat göndərməli idi. Ötən illər həmin gənclərin valideynləri üçün dəhşətli olmaqla yanaşı, bir çoxları üçün də faciəvi oldu - ən müxtəlif xəstəliklər tapıb dünyadan köçdülər. Ənvər Seyidov isə sağdır və təqaüdünün azlığı onu qane etmir...

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 165 (7335) 8 avqust 2019



# Eldar Mahmudov üçün "qan testi"

## İlk dəfədir sabiq MTN şefinin yaxın qohumu məhkəmə qarşısına çıxarılıb; əmisi oğlu Vüqar Mahmudov digər generallar kimi sona qədər susacaqmı?

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin sabiq şefi Eldar Mahmudovun əmisi oğlu Vüqar Mahmudovun işi üzrə məhkəmə prosesi başlayıb. Bakı Hərbi Məhkəməsində hakim Elbəy Allahverdiyevin sədrliyi ilə keçirilən məhkəmə iclasına gətirilən V.Mahmudov ünvanına səslənən ittihamlara cavab verməyib. Məhkəmədə V.Mahmudovun işi üzrə zərərçəkmiş qismində tanınan şəxslər ifadə veriblər.**

Zərərçəkən Sahib Qurbanov deyib ki, tanışı Amil Yusifov siqaret ticarəti ilə məşğul olurdu və onu MTN-in Xəzər rayon şöbəsinin əməkdaşları saxlamışdı. Dostunun cinayət məsuliyyətinə cəlb olunmaması üçün danışıq aparmaq məqsədilə şöbəyə getdiyini deyən S.Qurbanovun sözlərinə görə, orada MTN-in Heydər İslamov adlı əməkdaşı ilə görüşüb:

"O, məni də hədələdi. Dedi ki, mən də cinayət məsuliyyətinə cəlb olunacağam. Bunun baş verməməsi üçün 40 min manat istədi. Bir gün sonra aparıb 40 min dollar verdim".

Zərərçəkmişin sözlərinə görə, bir müddət sonra - 2015-ci ilin fevralında Amil Yusifovun siqaret ticarəti ilə məşğul olduğu Zaur Əzimovu yenə MTN əməkdaşları saxlayıb. Bu dəfə MTN-in Binəqədi şöbəsinin əməkdaşları. Həmin vaxt Xəzər rayon şöbəsinin rəisi Binəqədi şöbəsinə rəhbər gəlib, bir neçə əməkdaşı da özü ilə gətirib. "Zaur Əzimovla Amil Yusifovun 100 qutu siqareti MTN-in Binəqədi rayon şöbəsinə aparılmışdı. Şöbədən Heydər İslamov zəng edib məndəki 60 qutu siqareti də qısa müddətdə təhvil verməyimi tələb etdi. Əks halda, həbs olunacağımı dedi. Siqaretlərdən 55 qutusunu şöbəyə apardım. Elə həyətdə Heydər İslamov və Rafiq Səfərovla görüşdüm. Onlar həm siqareti müsadirə edirdilər, həm də əlavə pul istəyirdilər. Heydər İslamova dedim ki, əlavə pul verə bilməyəcəyik. Oradan gəlib Daxili İşlər Nazirliyində idarə rəisi işləmiş general Vidadi Rzayevlə görüşdük. Dedi ki, Eldar Mahmudovla bu barədə danışacaq. Sonra Vidadi Rzayev özü də şöbəyə getdi, Rafiq Səfərovla görüşdü. Zaur Əzimovun həbs olunmaması üçün Rafiq Səfərovla 150 min manata razılaşdıq. Sonradan hissə-hissə 120 min manat pul verildi", - deyə zərərçəkmiş ifadəsində bildirib.

**Sahib Qurbanov onu da deyib ki, Eldar Mahmudov vəzifəsindən kənarlaşdırılandan sonra həm prokurorluğa şikayət edib, həm də vaxtilə pul verdiyi adamlara zəng eləyib, pulunu geri istəyib:** "Heydər İslamovla görüşüb pulumu istədim. Mənə 5 min manat verdi, dedi, qalanını da bir müddət sonra verəcək. Vermədi. Rafiq Səfərova da zəng elədim. O da söz verdi ki, qaytaracaqlar. Bir müddət sonra qohumuyla 25 min manat göndərdi, notarial qaydada mənə verdi". **Zərərçəkmişin sözlərinə görə, qalan pulu ona verməkdən imtina ediblər. Deyiblər ki, ondan aldıqları pulu da, siqareti də Eldar Mahmudovun köməkçisi və əmisi oğlu Vüqar Mahmudova veriblər:** "Dedilər ki, get, ondan tələb elə. Onlar demişdilər ki, nazirlikdə Vüqarın sözü müavinlərdən çox keçir. Onun hər kəlməsi Eldar Mahmudovun sözü kimi qəbul edilirdi".

**Verdiyi pul və siqaretlərlə birlikdə 85 min manat ziyana düşdüyünü söyləyən zərərçəkmiş bunun 30 min manatını aldığını, qalanını da tələb etdiyini bildirir:** "Mən Heydər və Rafiqdən israrla pulumu tələb edirdim. Deyirdilər ki, vəziyyətləri yaxşı deyil. Deyirdilər, Vüqara vermişik, o da qaytarmır. Hətta Binəqədidəki 16 mərtəbəli binada baş verən yanğınla əlaqədar 200 min manat pul alıblar, onu qaytarmalıydılar, qaytara bilmirdilər. Bunu da özləri demişdi mənə. Hazırda 55 min pulum qalıb, onun ödənilməsini tələb edirəm".

Vüqar Mahmudovun cinayət işi üzrə ittiham aktı Bakı Hərbi Məhkəməsinə bu ilin aprelində daxil olub. Amma ötən müddət ərzində Vüqar Mahmudov cəmi 1 dəfə məhkəmə qarşısına çıxarılmışdı. Bu onun məhkəmədəki 2-ci dəfə prosesə qatılması idi. İyun ayın əvvəlində keçirilməli proses Vüqar Mahmudovun iştirakı təmin edilmədiyinə görə təxirə salınmışdı. May ayında keçirilən son proses də eyni səbəbdən təxirə düşmüşdü. İyulun 22-nə təyin olunmuş proses də qeyri-müəyyən səbəblərdən baş tutmamışdı.

Sabiq nazirin əmisi oğlu Vüqar Mahmudov 2017-ci il noyabr ayının əvvəlində həbs edilib. O, hədə-qorxu ilə pul tələb etməkdə ittiham olunur. Cinayət işi üzrə 7 nəfər zərərçəkmiş var. Həmin şəxslərdən biri "Bakı Metropoliteni" QSC-nin sabiq rəisi Tağı Əhmədovdur. İş üzrə digər zərərçəkmişlər isə general Akif Çovdarov və Elçin Quliyevin cinayət işində zərərçəkmiş qismində tanınan şəxslərdir. Vüqar Mahmudovun həbsi də gözlənilməz oldu. Sonradan belə xəbərlər vardı ki, onu ibtidai istintaq dövründə uzun-uzadı dindirmələrlə yormayıblar. Bir neçə dəfə sorğu-sual olunub, qısa dindirmələr əsasən Vüqar Mahmudova verilən mənimsəmə ittihamı üzrə olub. Vüqar Mahmudovun həbsinin ilk günlərində yayılan məlumatlarda bildirilirdi ki, onu Eldar Mahmudovun qanunsuz fəaliyyətinə dair də sorğu-sual ediblər. Belə xəbərlər vardı ki, Vüqar Mahmudovdan Eldar Mahmudovun əleyhinə ifadələr alına bilər. Məsələ ondadır ki, Vüqar Mahmudov Eldar Mahmudovun "sağ əli" hesab edilirdi. V.Mahmudov rəsmiyyətdə Eldar Mahmudovun köməkçisi statusunda olsa da, qeyri-rəsmi şəkildə bir çox hallarda nazir müavinlərindən artıq səlahiyyətli olub. İddialara görə, onun kabinetində bir neçə iri seyf olub. Həmin seyflərə iş adamlarından, müxtəlif vəzifə sahiblərindən, məmurlardan toplanan "xəraclar" yığılıb və oradan da daşınıb...

Vüqar Mahmudovun bu epizodlar üzrə dindirildiyi haqda məlumatlar vardı. Əsasən ləğv edilmiş MTN tərəfindən cəzalandırılan şəxslərdən yığılan pullar Vüqar Mahmudov tərəfindən toplanaraq bu haqda nazirə məruzə olunurmuş. Vüqar Mahmudovun həbsindən sonra yayılan xəbərlərdə onun ifadəsi əsasında Eldar Mahmudovu həbs etmək istəyinin olduğu da vurğulanırdı. Eldar Mahmudovun əleyhinə ifadələr onun generallarından da alına bilərdi, bunun əvəzində də qan qohumu Vüqar Mahmudovun seçilməsi təsadüfi hesab oluna bilməzdi. Belə ifadələr veriləcəyi təqdirdə, Eldar Mahmudovu kimsəni onu şərləməkdə suçlaya da bilməyəcəkdi. Belə görünür ki, Vüqar Mahmudovun məhkəmədə sərgilədiyi susqunluq ibtidai istintaq zamanından davam edib.

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# PKK-ya ağır zərbələr-terror təşkilatı tarixmi olur...

## Ekspert iddia edir ki, PKK artıq Qərbə lazım deyil

**Son zamanlar PKK terror təşkilatının ciddi zərbələr aldığı və bunun nəticəsində getdikcə tarix olduğu açıq şəkildə görünür. Terror qruplaşması əvvəlki kimi təhlükəli deyil. Ekspertlərin də tez-tez PKK-nın sıradan çıxarıldığı yönündə fikirlərinə rast gəlirik.**

**Son olaraq, siyasi şərhçi Əhəd Məmmədli** bu barədə "Yeni Müsavat"ın ötən sayında fikirlər səsləndirib.

**Sitat:** "Son illərdə PKK sarsıdıcı zərbələr alıb. Bu sarsıdıcı zərbələr siyasi müstəvidə də davam etdi. Son seçkilərdə cənubi-şərqi Türkiyədə PKK tərəfdarları ən az səs aldılar. İndi bu terror təşkilatının əsas dayaqları Şimali Suriyada yerləşir. Şimali Suriyada böyük ərazilərə nəzarət edirlər. Təbii ki, bütün bunlara ABŞ-ın açıq dəstəyi nəticəsində nail olublar. Türkiyə sərhədində belə bir terror təşkilatının mövcud olması yolverilməzdir. ABŞ 10 min silah dolu tırı YPQ-PYD terror təşkilatına yollayıb".

**Beynəlxalq münasibətlər üzrə şərhçi Əziz Əlibəyli PKK-nın zəifləməsinin səbəblərindən söz açdı:** "PKK gücünü birinci ona görə itirdi ki, içərisində ciddi parçalanma yaşanır. Təşkilat dini baxımdan yetkin deyil, ideoloji baxımdan isə vahid fikir ətrafında güclü mərkəz yarada bilmişdilər. Amma terror təşkilatı ən güclü dövrünü 90-cı illərdə yaşasa da, Türkiyə hakimiyyəti və siyasi qüvvələr təşkilatdan siyasi alət kimi istifadə etməyə başladı. Lakin Suriyada baş verənlər, AKP-nin son dövrlər PKK-nı ciddi olaraq düşmən kimi siyahısına salıb, aktiv antiterror əməliyyatlarına başlaması, qurumdakı metal yorğunluq və illər uzunu nəticə əldə edilməməsi, PKK-nın digər formalarının - PYD, YPG və s. meydana çıxması, beynəlxalq dəstəyin zəifləməsi PKK-nı xeyli dərəcədə sarsıdıb. Gözlənildiyi kimi, terrorun uzun müddət davam etməsi terrordan əziyyət çəkən xalqı da, elə kürdlərin özünü də bezdirdi. Bu komponentlər təşkilata çox təsir etdi. Qərb PKK ilə bağlı planını xeyli redaktə edib. Çünki PKK KQB ideyasından və dəstəyindən doğulub. Sol radikallıq bir müddət aktual idi. Amma dindar Türkiyədə populyarlığını getdikcə itirir. Türkiyəyə qarşı kürdlərdən, xüsusən müsəlman olanlardan dəstək ala bilmədi. Bu baxımdan digər terror təşkilatları yaradaraq, PKK-nın görüşlərini bir növ ləğv etdilər. İndi PKK artıq kiməsə lazım deyil. Terror təşkilatının yaxın vaxtlarda sahibi çıxmazsa, dağılmağa məhkumdur".

**Politoloq Məhəmməd Əsədullazadə fərqli düşünür:** "Türkiyənin PKK terror təşkilatına qarşı apardığı əməliyyatlar terror təşkilatına kifayət qədər zərbə vurub və demək olar ki, Şimali İraqda dayaqları zəifləyib. Xüsusilə Cənub Şərqi Anadoluda PKK-nın mövcudluğuna son qoyulub. Son iki ildə Türkiyənin əməliyyatları öz bəhrəsini verdi. Artıq PKK Qandilə sığınaraq burada öz mövcudluğunu saxlamağa çalışır. PKK-nın Türkiyə arealında terror aktlarına son qoyulub və hərəkəti məhv edilib. Hesab edirəm ki, PKK məhv edilməyib, yalnız zəifləyib. Bəzi Qərb dövlətləri Suriyada PYD-ni dəstəklədiyi üçün PKK-ya dəstəyi azaltdı. Çünki Türkiyənin qərarlı hərbi əməliyyatlarına PKK mane oldu. Suriyada PYD və YPG demək olar ki, PKK-nin bir qoludur və burada Qərb PKK-nı dəstəkləmiş olur. Türkiyə Suriyada Fəratın Şərqində YPG-yə qarşı hərbi əməliyyatları həyata keçirməsə, YPG-PKK birlikdə güclənib Türkiyəyə hücumlar həyata keçirəcək. Hazırda Qərbdə PKK və YPG ilə bağlı planlar masadadır və onların inkişafı, Şimali Suriyada bu terror təşkilatları üçün dövlət qurmaq planı üzərində iş aparılır. ABŞ məhz YPG-ni ona görə dəstəkləyir ki, bir müddətdən sonra PKK bu təşkilatın dəstəyi ilə yenidən dirçəlsin. ABŞ PKK və YPG siyasətindən geri çəkilməyəcək. Bu, Türkiyəyə qarşı təzyiq və silah ticarətinin bir növüdür. Ona görə də İraqda PKK-nın mövcudluğu pərakəndə olsa da davam edəcək. Hazırda Türkiyə daxilində PKK ciddi şəkildə nüfuzdan düşüb. Son seçkilərdə bunu göstərməklə demək olar ki, kürd əsilli vətəndaşlar regionda terrorun bir bələ olduğunu göstərdilər. Bununla heç də inkişafa və muxtariyyətə sahib olmayacaqlarının fərqindədirlər. PKK-nın siyasi qanadı olan HDP-nin məğlubiyyəti göstərir ki, əvvəlki illərdən fərqli olaraq kürd əsillilər artıq praqmatik düşünür və İraqda, Suriyada yaşanan müharibədən dərs götürürlər. Bundan sonra Türkiyə siyasətini bu istiqamətdə qərarlı şəkildə davam etdirsə, PKK-nın siyasi avantürasının tam qarşısını alacaq və Türkiyə daxilində bu terror təşkilatının mövcudluğuna son qoyacaq".



❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



# İntim drenaj

Zamin HACI
zaminhaci@gmail.com

"Su axar, çuxurunu tapar"
*(Azərbaycan ata sözü)*

**Ağır cinayətlər məhkəməsində bir işə baxmağa hazırlaşırlar, aran rayonumuzda drenaj kanalı idarəsinin müdirini intim videolarla şantaj edərək hər ay ondan 7 min manat alan quldur dəstəsi mühakimə ediləcəkdir. Rəqəmə fikir verdinizmi? 7 min. Belə baxanda hansısa kanal müdirində o qədər pul olmamalıdır. Ancaq varmış. Quldurlar da bunu bilirmiş. Əslində hamımız bilirik. Bizdə quldurlar daha hörmətli yaşayırlar. Böyük quldurlar balaca quldurları soyur, onlar daha balacaları.**

Eyni vaxtda universitet müəlliminin dələduzlara tuş gəlib aldadılması haqda xəbər verilmişdi. Deyir bu kişi fəlsəfə kafedrasında çalışır, hətta bir neçə kitab-zad da cızmaqara etmişdir. Lakin Sokratdan, Kantdan, nə bilim, lap elə Sührəvərdi müəllimdən öyrəndiklərini qırağa qoyub öz uşağını hüquq-mühafizə orqanlarına rüşvətlə işə düzəltmək fikrinə düşübmüş. Beləcə, quldurlar fəlsəfə müəlliminin 50 min manatının başına daş salıbdır. İndi müəllim iddia edir guya bu pulun hamısını kreditə, sələmə-filana götürübmüş. Təbii. Cahangir müəllim də Beynəlxalq Bankdan kredit götürmüşdü. Zamirə xala isə Londonda sələmçilərin pullarını xərcləyirdi.

Bəlkə də doğrudan fəlsəfə müəllimi sələmçidən pul alıb bu fırıldağın qurbanına çevrilibdir. Ancaq bu adamlar niyə özlərinə sual vermir ki, axı 50 min verib uşağı işə düzəltsəm, bu uşaq həmin pulları sonra kimdən, hansı kriminal yollarla çıxartmalıdır? Niyə bu ölkədə Fuad Poladov kimi təmiz, tamahsız, gözütox adamlar çox azdır? O aktyor ki, ölümündən azca qabaq xanımına bərk-bərk tapşırmışdı: "Əgər mən öləndən sonra yas mərasimi-filan üçün hökumətdən kiməsə ağız açsan səni heç vaxt bağışlamaram". Xanımı da aktyor qədər gözəl insan imiş, vədinə əməl elədi.

Qayıdaq kanal müdirinin əhvalatına. Onun gördüyü işin qısa məzmunu belədir ki, respublika ərazisində 200 kilometrə yaxın uzunluğu olan drenaj kanallarını təmiz saxlamalıdır, nəticədə qrunt suları axıb Xəzərə getməlidir, beləcə torpaq şoranlıqdan, duzdan təmizlənməlidir, kənd təsərrüfatı inkişaf eləməlidir. Şəhər camaatı üçün prosesi lap detallı izah edim: drenaj üsulu belədir ki, torpaq sahələrinin ətrafında kanallar qazırsan, üst qatda yığılıb torpağı şoranlaşdıran sular da axıb gedir. Çünki Aranda hər yer düzənlikdir, suyun özbaşına axıb getməsi üçün imkan yoxdur. Amma bu adam intim şantaja görə hər ay 7 min ödəyirmiş. Əcəb drenajdır. Bir maraqlı termin də yerinə düşür: bu kişinin çalışdığı kanallar şəbəkəsinin başqa adı kollektordur. Banklara borclu olan adamlardan zor-xoş pulları geri alan işçilərə də kollektor deyirlər. Yəni belə çıxır qeyri-rəsmi kollektorlar kollektorun müdirini kollektiv şəkildə kor qoyublar. O yanıltmacda deyilən kimi: "Getdim gördüm bir dərədə bir kar, kor, kürkü yırtıq kirpi..." Sanki Azərbaycan xalqı öz folklorunu doğruya çıxartmaq üçün yaşamaqdadır. Yoxsa hara baxırsan ya kürkü yırtıq kirpi görürsən, ya qılquyruq qırqovul, ya da ən yaxşı halda el üçün ağlayıb gözü kor olmuş adam.

Deyə bilərsiniz, hər halda, cinayət işi açılıb, quldurlar tutulub, kollektor müdiri bəlkə heç 7 mini verməyibdir. O zaman gəlin xəbərə qayıdaq. Quldurlar kanalın müdirindən 1 ilə yaxın müddətdə 70 min manat qoparıblar. Bəs vergi idarəsi, maliyyə idarəsi, su idarəsi, kanal idarəsinin rəhbərliyi, nə bilim, başqa əlaqədar orqanlar niyə maraqlanmayıblar ki, bu kişi hər ay 7 min manatı haradan tapırmış, nə cür ödəyirmiş, niyə ödəyirmiş və sairə. Axı zarafat deyil, bu məbləğ Azərbaycanda 1 nəfərin 10 illik orta aylıq əməkhaqqı qədərdir (əgər Statkoma inansaq, bu il bizdə orta maaş 555 manatdır).

Böyük ehtimal bu rüşvətxor adamların hamısı AXC-Müsavat dövründən qalma kadrlardır. Kanallarda gizləniblər.



# İşğalçı ordu haqda şok faktlar - İrəvanda saxta məhkəmələr

## Düşmən ölkə rəhbərinin 7 arzusu və... onları əlçatmaz edən tək Qarabağ gerçəyi; **erməni hüquq müdafiəçisi mediaya:** "Ordudakı cinayətlər dərc ediləndən qat-qat çoxdur..."

**Azərbaycan siyasi gündəminin əsas mövzularından biri Ermənistan baş naziri Nikol Paşinyanın avqustun 5-də Xankəndindəki mitinqdə etdiyi təxribatçı çıxışdır. Daha çox da onun orada "Arsax ("Dağlıq Qarabağ"- "YM") Ermənistanındır" sərsəmləməsidir. Ancaq həmin çıxışda erməni rəhbər heç vaxt reallaşmayacaq başqa fantastik arzu-istəklərini də dilə gətirib - hansılar ki, diqqətdən kənarda qalıb.**

Paşinyanın həmin çıxışının mətni ilə tanış olduqda onun əslində erməniləri, ondan iş, çörək gözləyən ac-yalavac toplumu doğrudan da ələ saldığı aydın görünür. Belə ki, erməni baş nazir Xankəndindəki çıxışında bu hədəflərdən də danışıb:

***1.** 2050-ci il üçün Ermənistanın əhalisini 5 milyon nəfərə çatdırmalıyıq.*

***2.** Ermənistanda 1,5 milyon iş yeri yaratmalıyıq.*

***3.** Ermənistanın ümumi daxili məhsulunu 15 dəfə artırmalıyıq.*

***4.** Ermənistanda 5 texnoloji şirkət yaratmaqla 10 milyard dollar gəlir əldə etməliyik.*

***5.** Ermənistanda orta aylıq əmək haqqını 7 dəfə, səhiyyənin maliyyələşdirməsini 20 dəfə artırmalıyıq.*

***6.** Ermənistana hər il 15 milyon turistin gəlişini təmin etməliyik.*

***7.** Ermənistan futbol üzrə dünya çempionu olmalıdır.*

Politoloq Elxan Şahinoğlu bu yerdə tam haqlıdır deyəndə ki, Paşinyan sonuncu istəyi ilə lap gül vurub. Gerçəkdən də işğalçı ölkədə hər şey yoluna qoyulub, ermənilər artıq ağ günə çıxıb, qalır bircə futbol üzrə dünya çempionatının orada təşkili.

Yada salaq ki, bu çıxışdan cəmi iki gün qabaq N.Paşinyan İrəvanda facfebook-da etdiyi canlı çıxışında acı etiraflarda bulunmuş, hansısa məxfi sənəddən danışaraq "biz iflic vəziyyətdəyik, ölkə uğursuzluğa düçar olub, mövcud problemləri həll eləmək üçün illər lazımdır" söyləmişdi.

*****

Bu arada Ermənistan əhalisinin sayı son 6 ay ərzində 3700 nəfər azaldığı məlum olub. Məlumatı Nikol Paşinyan hökumətinə yaxın "Joxovurd" qəzeti yayıb. Həmin məlumata görə, hazırda ölkə əhalisinin sayı 2961600 nəfər təşkil edir. Bu göstərici keçən ilin analoji dövrü ilə müqayisədə 8200 nəfər azdır. Ən çox azalma isə Şirak vilayətində (2200 nəfər) qeydə alınıb.

Keçən ay isə Ermənistanın Əmək və Sosial Məsələlər Nazirliyinin Demoqrafiya Şöbəsinin rəisi Artak Markosyan erməni portalına müsahibəsində demişdi ki, doğum və ölümlə bağlı Ermənistanı çox çətin zamanlar gözləyir. Sitat: "Hazırda insan resursları baxımından Ermənistan müharibə vəziyyətində olduğu Azərbaycanla müqayisədə olduqca uğursuz durumdadır. Hətta 8 milyonluq Azərbaycanın varlığı da onunla müharibə vəziyyətində olan Ermənistan üçün çox pis gerçəklikdir. Ermənistanla düşmən münasibətdə olan başqa qonşunun - Türkiyənin əhalisi hazırda 82 milyondur və BMT-nin hesablamalarına görə, 2050-ci il üçün 98 milyon, Azərbaycanın əhalisi 11 milyon olacaq. Ermənistanın əhalisi bu müddətdə 2 milyon 861 minə kimi azalacaq".

Paşinyan isə 2050-ci il üçün 5 milyon əhali sayından dəm vurur. Hansı düz deyir? Əlbəttə ki, məmur-demoqraf-mütəxəssis Markosyan, nəinki populist Paşinyan. Əsas da o səbəbə ki, bu problemlərin hamısının həlli önündə bir qalın divar dayanır: işğal amili, tək Qarabağ gerçəyi.

*****

Məntiqlə ölkənin rəhbərliyi, konkret olaraq Nikol Paşinyan ilk növbədə bundan narahat olmalıdır. Çünki fakt budur ki, Ermənistanda bəh-bəhlə reallaşan "məxməri inqilab"dan sonra da ölkədən kütləvi köç dayanmayıb. Ona görə ki, vəd olunan iş yerləri, xaricdən böyük sərmayələr elə quru söz olaraq, qalır. Bu fonda Ermənistanın xarici borcları artmaqdadır.

Ermənistan ordusunda davam edən başıpozuqluq, özbaşınalıq isə ermənilər üçün ayrı bir dərdə çevrilib. Məsələ ondadır ki, Paşinyan və hökuməti artıq vəd elədiyi hərbi islahatları da unudub. Ona görə ki, özünün dediyi kimi, bundan ötrü 5 milyard dollar lazımdır. Bu pullar isə küçələrə tökülməyib. Onu heç Qərbin zəngin erməni diasporu da vermək istəmir.

Bu da ordudakı acınacaqlı duruma güzgü tutan növbəti fakt. Söhbət Azərbaycanın işğal altındakı Ağdərə rayonu ərazisində, Madagis kəndi ərazisində yerləşən erməni hərbi hissəsində zabitlərin əsgərlərə qarşı ardı-arası kəsilməyən qəddarlıqlarından gedir. Erməni mənbələri bildirir ki, hərbi hissənin zabitlərinin bir qismi barədə artıq cinayət işi qaldırılıb, digərləri müxtəlif cinayətlərə görə məhkum edilib. Amma xidmətdən azad edilməyiblər və hələ də hərbi hissədə qulluq edirlər (Virtualaz.org).

Xatırladaq ki, 2016-cı ilin aprel döyüşləri zamanı Azərbaycan artilleriyası Matagisdəki həmin hərbi hissəni sərrast zərbələrlə vurub, nəticədə düşmən xeyli itki verib. Hərbi hissədə ciddi dağıntı meydana gəlib. Habelə erməni mənbələrindən məlumdur ki, döyüşlər başlayanda Madagis polkunun komandiri, polkovnik Arutyun Əmirxanyan qaçıb aradan çıxıb və yalnız atəşkəsin əldə olunmasından sonra hərbi hissəyə qayıdıb.

Forrights.am saytının yazdığına görə, həmin polkda sıravi əsgərləri döyür, onlara sadist işgəncələr verirlər. Bu işlərə polkun indiki komandiri Armen Gözəlyan başçılıq edir. Gözəlyanın müavini, polk komandirinin "sağ əli" mayor Artur Fərhadyan isə hərbi hissənin ən qəddar zabiti kimi ad qazanıb. O, iki dəfə məhkəmə qarşısında dayansa da, hərbi prokurorluq və Sünik məhkəməsi ona qarşı yumşaq davranıb. Nəhayət, 2019-cu ildə Gorus məhkəməsi mayoru 4 il həbsə məhkum edib, amma dərhal da qərar çıxarıb ki, Faxradyanın cəzası şərti cəza ilə əvəzlənsin. Hökmdən cəmi bir neçə ay sonra Faxradyan yenə əsgəri döyüb, iş hərbi prokurorluğa gedib. Amma mayoru yenə tutmayıblar və onun barəsində başqa yerə getməmək haqda iltizam almaqla kifayətləniblər.

"Cinayətkar mayor prokurorluğun, hakimlərin, öz komandirlərinin, polkovnik Armen Gözəlyanın, müdafiə naziri David Tonoyanın tam müdafiəsi altındadır. Hərbi hissədə cinayətlər isə davam edir" - sayt yazıb. Hüquq müdafiəçisi Janna Aleksanyan sayta bildirib ki, ordu ilə bağlı neqativ informasiyalar dərc ediləndən qat-qat çoxdur və onların açılmasına elə Müdafiə Nazirliyi əngəl yaradır.

Bu da sizə Paşinyanın hərbi sahədəki "islahatları". Cinayətkar zabitlərin arxasında müdafiə naziri David Tonoyan durursa, əlavə şərhə ehtiyac qalmır...

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

# Paşinyan "miatsum" bəyanatı ilə Ermənistanı pat vəziyyətinə saldı

## İrəvan baş nazirin mövqeyinə düzəliş etməyə çalışdı; erməni ekspertlər "Nikol Paşinyanın Qarabağdakı bəyanatlarından Azərbaycan İrəvana qarşı istifadə edəcək" deyirlər; rəsmi Bakıdan Ermənistan XİN-in təkzibinə cavab gəldi



**Ermənistanın baş naziri Nikol Paşinyanın işğal altındakı Azərbaycan ərazilərində səsləndirdiyi iddialara rəsmi Bakının sərt reaksiyası və bundan sonra baş verəcək hadisələrə görə İrəvanın məsuliyyət daşıyacağı barədə xəbərdarlığı, deyəsən, düşmən tərəfi narahat edib. Hər halda, Ermənistan Xarici İşlər Nazirliyinin (XİN) Paşinyana bəraət qazandırmağa yönəlik son açıqlaması da bunu təsdiqləyir.**

İrəvan iddia edir ki, baş nazirin fikirləri kontekstdən çıxarılıb və guya Ermənistan, sadəcə, Dağlıq Qarabağın təhlükəsizliyinə qarant rolunu oynayır. Amma fakt budur ki, N.Paşinyan "Dağlıq Qarabağ (əslində "artsax" demişdi-red.) Ermənistandır. Nöqtə" deməklə faktiki olaraq xəstə "miatsum" xülyasını dəstəkləyərək, danışıqların üzərindən qara xətt çəkmiş oldu. Azərbaycanın Prezident Administrasiyası, XİN-i və Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbərliyi bəyanatlarında Ermənistanın hökumət başçısının savaşı tətikləyən mövqeyini kəskin tənqid etməklə yanaşı, beynəlxalq aləmi real durumla bağlı xəbərdar etməyə çalışdılar. Görünür, Paşinyan geri dönəndən sonra bəyanatlarının "barıt"ını çox elədiyinin fərqində olub və təcili düzəliş etməyə qərar verib. Yeri gəlmişkən, N.Paşinyan hakimiyyətinin ilk günlərində onunla bağlı fərqli yanaşmalar var idi. Hesab olunurdu ki, Sərkisyan-Köçəryan cütlüyündən fərqli olaraq, Nikol müharibə partiyasının üzvü olmadığı üçün konstruktiv mövqe tutacaq və danışıqlarda effektli nəticənin əldə olunmasına səy göstərəcək. Ancaq yeni hökumət başçısının mövqeyi bir çox hallarda radikallıq baxımından sələflərindən çox uzağa getdi.

Maraqlı bir məqamı da vurğulayaq: Ermənistanın baş nazirinin Dağlıq Qarabağda səsləndirdiyi populist bəyanatlar ermənilərin özləri tərəfindən də qeyri-ciddi mövqe kimi qiymətləndirilib. Erməni mediası Paşinyanın Xankəndindəki çıxışını "utopiya və surrealizm" adlandırıb. Paşinyanın "2050-ci ilə qədər biz növbəti problemlərimizin həllinə nail olmalıyıq. Ermənistan əhalisinin sayını 5 milyon nəfərə çatdırmalı, 1,5 milyon iş yeri açmalı, 2,5 milyon məşğulluq məsələsini həll etməli və yoxsulluğu aradan qaldırmalı, Ermənistanı sənaye ölkəsinə çevirməli, ümumdaxili məhsulu 15 dəfə artırmalı, ermənilərin dəyəri 10 milyard dollara və işçi startapları on minlərə yüksələn ən azı beş texnologiya şirkətinə malik olmalı, ordu döyüş hazırlığına görə dünyanın iyirmi lideri arasında yer tutmalıdır", sözləri gülüşlə qarşılanıb. Amma təəssüflər olsun ki, bu gün Azərbaycan Qarabağ məsələsi ilə bağlı məhz bu cür qeyri-ciddi, ziddiyyətlərlə dolu şəxslə danışıqlar aparmalı olur. Onun son mövqeyi isə danışıqların perspektivini sual altında qoyub.

**Hətta əcnəbi ekspertlər də Paşinyanın təxribata əl atdığı qənaətindədir. "Ermənistanın baş naziri Nikol Paşinyanın Dağlıq Qarabağa baş çəkməsi sırf təxribat mahiyyəti daşıyaraq beynəlxalq hüquq normalarının tapdalanması deməkdir". Bunu "Report"a amerikalı politoloq, Viskonsindəki Markett Universitetinin professoru Piter Teys N.Paşinyanın Azərbaycanın işğal olunmuş ərazisində keçirdikləri "panerməni oyunları"nın açılışında iştirakını şərh edərkən deyib. Paşinyanın bu addımını "Ermənistanın faşist rəhbərliyi" tərəfindən Azərbaycana qarşı aparılan psixoloji müharibənin bir hissəsi olaraq dəyərləndirən ekspert Ermənistan hökuməti başçısının bununla beynəlxalq birliyi də, erməni xalqının üzləşdiyi iqtisadi və sosial problemləri də qulağardına vurduğu qənaətindədir.** "Gördüyümə görə, Ermənistan diplomatiyası ilə Azərbaycan xalqının doğma yurd-yuvalarına, Ermənistan hərbi qüvvələrindən azad olunaraq doğma torpaqlarına qayıtmaq arzusuna məhəl qoymayaraq hazırkı status-kvonu saxlamaq üçün əlindən gələni edir", - amerikalı politoloq diqqətə çatdırıb. O fikrini belə tamamlayıb: "Beynəlxalq birlik baş verənlərə müvafiq qiymət vermədikcə Azərbaycan torpaqları da Ermənistan hərbi qüvvələri tərəfindən işğal altında saxlanılır. Azərbaycanın suveren torpaqlarına Ermənistanın ordu yeritməsi dünya tarixinin ən azğın əməllərindən biridir".

**Ermənişünas alim, politoloq Qafar Çaxmaqlı "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, o, heç vaxt hər hansı erməni siyasətçisinə "ümid var idi" deməyib:** "Çünki onların hamısı Qarabağ məsələsində bir mövqe sergiləyiblər, 1988-dən bəri belə olub. Onların məqsədi Dağlıq Qarabağı Ermənistana birləşdirməkdir. Biz bilməliyik, bu məsələ güc yolu ilə həll olunacaq. Azərbaycanın güclü olmaq məcburiyyəti var. Əks təqdirdə, torpaqları verəcəyik. Həm də bu məsələni çox uzatmaq olmaz. Uzandıqca Qarabağ da bizdən uzaqlaşır". **Q.Çaxmaqlı hesab edir ki, Paşinyanın sonuncu mövqeyindən sonra Bakı bu danışıqlara getməməlidir:** "Azərbaycan XİN nəhayət ciddi bir bəyanat verməlidir. Paşinyan Qarabağı "Ermənistan" elan etməsindən sonra hansı danışıqdan söhbət gedə bilər?! Paşinyanın həyasızlığı ilə bağlı verilən dış siz açıqlamalarımız əslində erməni tərəfinin ürəyincə oldu və onlar bundan sonra üstümüzə gələcəklər".

**Ermənistan XİN-in Paşinyanın çıxışına "düzəliş" etmək cəhdinə gəldikdə, politoloq dedi ki, bu da başqa bir erməni həyasızlığıdır:** "İllərdir ki, bu arqumentdən, yəni Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyi üçün Ermənistanın qarant olmasından bəhs edirlər. Birləşməni də bununla ələqələndirirlər. Bu mövqedə manevr etmək imkanları da genişdir. Azərbaycanın hər hansı hərbi müdaxiləsi zamanı Paşinyan Dağlıq Qarabağ Ermənistana birləşdirmək istiqamətində addım ata bilər. Guya ki, bununla xalqın təhlükəsizliyini təmin edir. O zaman artıq Qarabağın taleyi ayrı bir məcraya düşəcək".

"Paşinyanın Xankəndindəki son bəyanatı daxili siyasətə yox, daha çox xarici auditoriyaya aiddir. Onun məqsədi Azərbaycanın bu və ya digər formada reaksiyasını öyrənməkdən ibarətdir. Paşinyanın əsas niyyəti odur ki, hərbi əməliyyatları bərpa edib öz məqsədlərinə nail olsun. Hesab edirəm ki, bu bəyanatın əsas ünvanı məhz Azərbaycandır". Bu sözləri isə keçmiş xarici işlər naziri, politoloq Tofiq Zülfüqarov deyib.

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin (XİN) mətbuat xidməti Ermənistan XİN-in "düzəliş" xarakterli bəyanatına münasibət bildirib. Musavat.com-un xəbərinə görə, XİN-in şərhində deyilir:** "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Ermənistan baş naziri Nikol Paşinyanın Azərbaycan Respublikasının işğal olunmuş Dağlıq Qarabağ bölgəsinin Xankəndi şəhərinə qanunsuz səfəri zamanı səsləndirdiyi təxribatçı fikirlərinə münasibətdə qəti mövqeyimizin əks olunduğu 6 avqust tarixli bəyanatına Ermənistan Xarici İşlər Nazirliyinin kifayət qədər xaotik və məntiqi izahı olmayan cavabı diqqətimizi cəlb etdi. Hesab edirik ki, Azərbaycana qarşı silahlı təcavüz həyata keçirərək ölkəmizin Dağlıq Qarabağ və ətraf bölgələrini qanunsuz güc tətbiqi ilə işğal edən, bu ərazilərdəki azərbaycanlı əhaliyə qarşı tam etnik təmizləməni həyata keçirən və Xocalı şəhərində soyqırım aktı törədən Ermənistanın Xarici İşlər Nazirliyi Azərbaycanı sivil normalara və ədəb-ərkana riayət etməməkdə, habelə dözümsüzlükdə ittiham edə biləcək subyektlər sırasında ən sonuncudur. Üstəlik, Ermənistan XİN-i Azərbaycan hökumətini N.Paşinyanın Xankəndində Ermənistan, Qarabağ və diaspor üçün "birlik, həmrəylik, inkişaf və tərəqqi" mövzusunda etdiyi çıxışının mahiyyətini və məzmununu başa düşməməkdə inandırmağa çalışır. Bu ölkənin baş nazirinin arxasınca, "nəcib niyyətini" oxşar və yöndəmsiz şəkildə izah edən Ermənistan XİN, faktiki olaraq, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə münasibətdə rəsmi Ermənistan tərəfindən anneksiya siyasətinin aparıldığını etiraf edir". **XİN bəyan edib ki, Ermənistan tərəfinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə ATƏT-in Minsk Qrupu həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinin məntiqinə xələl gətirən belə bir qeyri-adekvat yanaşmanı nümayiş etdirməsi regional gərginliyə səbəb olur və bunun məsuliyyəti tam şəkildə Ermənistanın üzərinə düşür:** "Ermənistan XİN-in başa düşməkdə çətinlik çəkdiyi, Azərbaycan Xarici İşlər Nazirliyinin 6 avqust tarixli və kifayət qədər aydın yazılmış bəyanatında məhz bu sözlər qeyd edilir".

**Erməni ekspertlər də N.Paşinyanın Xankəndində ciddi yanlışlığa yol verdiyinin fərqindədir. "Nikol Paşinyanın Qarabağdakı bəyanatlarından Azərbaycan İrəvana qarşı istifadə edəcək". Axar.az verir ki, bunu "Tert.am"a açıqlamasında erməni politoloq Qrant Məlik Şahnəzəryan deyib.** "Mən Azərbaycanın bundan erməni tərəfini danışıqlar prosesini bitirməkdə ittiham etmək üçün istifadə edəcəyindən şübhə etmirəm. Azərbaycan hər şeyi edəcək ki, bu bəyanatlardan beynəlxalq meydanlarda, o cümlədən Minsk Qrupunda istifadə etsin. Məni mümkün təzyiqlər yox, daha çox edilən məsuliyyətsiz bəyanatlar narahat edir. Paşinyanın hazırkı bəyanatları onun keçən il Qarabağın danışıqlar prosesində müstəqil iştirak etməsi kimi açıqlamalarını sual altında qoyur. Bu gün o, ictimaiyyətə heç bir izahat vermədən tamam əks mövqedə dayanır", - Şahnəzəryan bildirib.

"Azərbaycanın işğal altındakı torpaqlarında keçirilən "Pan-erməni oyunları" ilə bağlı qanunsuz olaraq Azərbaycanın işğal olunmuş torpaqlarına gələnlər Xarici İşlər Nazirliyi tərəfindən "qara siyahı"ya salına bilər". "Report" xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin azərbaycanlı icması"nın rəhbəri Tural Gəncəliyev deyib. T.Gəncəliyev deyib ki, Paşinyan Ermənistanda hakimiyyətə gələndə özünü demokrat şəxs kimi təqdim edirdi: "Amma artıq o, özünü səsləndirdiyi fikirləri ilə təcavüzkar siyasətçi kimi tanıtdı".

N.Paşinyan son addımı ilə Azərbaycana bütün istiqamətlərdən hücuma keçmək imkanı verib, özünü isə arqumentsiz qoyub. İrəvanın narahatlığı əbəs deyil...

**❑ Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 165 (7335) 8 avqust 2019

# Fındıq bazarında rəqabət şiddətlənir

## Türkiyə, Azərbaycan və Gürcüstan anlaşması kimə daha çox sərf edir?

**Türkiyə, Azərbaycan və Gürcüstanın kənd təsərrüfatı nazirlikləri fındıq sahəsində əməkdaşlıq barədə sənəd ("Fındık Alanında Stratejik İşbirliği Deklarasyonu") imzalayıblar. Rəsmi açıqlamaya görə, əməkdaşlıqda məqsəd fındığın qiymətini yüksək saxlamaqdır.**

Üç ölkə həmçinin fındığın məhsuldarlığının və keyfiyyətinin artırılması, xəstəliklərlə birgə mübarizənin təşkilində də əməkdaşlıq etmək niyyətindədir. Bu əməkdaşlıq hansı zərurətdən irəli gəlir? Niyə fındığın ən böyük istehsal və ixracatçısı olan Türkiyə Azərbaycan və Gürcüstanın dəstəyinə ehtiyac duydu?

**Türkiyə fındığına təhlükə haradan gəlir?**

Bu suallara cavab tapmaq üçün dünya fındıq bazarındakı tendensiyalara diqqət yetirmək lazımdır. Məlumdur ki, fındıq dünyada tələbatı ildən-ilə artan məhsullardan biridir. Son illərdə dünya fındıq istehsalı 1 milyon ton civarında dəyişir. Bunun 80 faizi şokolad, 10-12 faizi tort-biskvit və digər qənnadı məmulatları sənayesində, 3-4 faizi çərəz olaraq, qalanı isə dondurma və yağ sənayesində istehlak olunur.

Qeyd edək ki, dünyada istehsal olunan fındığın 70-75 faizi Türkiyənin payına düşür. İkinci böyük fındıq istehsalçısı olan İtaliya həm də bu məhsulun dünya üzrə ən böyük alıcılarından biridir. İtaliya ildə 125 min ton fındıq istehsal edir. İtaliyanı təqribən 50 min tonla Gürcüstan, 40,5 min tonla Azərbaycan izləyir. Fındıq istehsalında ilk 10 sırada olan ölkələrin ümumi məhsuldarlığı Türkiyə qədər etmir.

Eyni zamanda Türkiyə dünyada ən keyfiyyətli fındığın istehsalçısıdır. Qara dəniz Fındıq və Məmulatları İxracatçılar Birliyinin məlumatına görə, Türkiyədən keçən il 115 ölkəyə 1 milyard 635 milyon dollarlıq fındıq ixrac edilib.

Türkiyədə 700 min hektarı keçən fındıq sahələrində 440 min nəfər çalışır. Belə böyük əməktutumlu bir sahə olduğuna görə Türkiyədə dövlət fındıq istehsalçılarına dəstək verir. Bu dəstək hər hansı səbəbdən satış qiymətləri maya dəyərindən aşağı düşdüyü şəraitdə dövlət tərəfindən bazara alış intervensiyasını nəzərdə tutur. Dövlət maya dəyərindən 1,5-2 dollara yaxın artıq qiymətə məhsulu istehsalçıdan almaqla onun zərərə düşməsinin qarşısını alır. Son illərdə dövlət tərəfindən belə intervensiyalar müntəzəm həyata keçirilməkdədir. Məsələn, bu il mövsüm ərəfəsində Türkiyədə fındığın qiyməti 12-13 lirəyə qədər ucuzlaşıb. İyulun 26-da prezident Rəcəb Təyyub Ərdoğanın iştirakı ilə Türkiyə Torpaq Məhsulları Ofisi(TMO) dövlət tərəfindən təyin olunan builki baza alış qiymətini 50 faizlik keyfiyyət göstəricisinə malik Girəsun fındığının hər kiloqramı üçün 17 lirə, daha aşağı keyfiyyətli fındıq üçünsə 16,5 lirə olaraq açıqlayıb. Bu, türk fındıq istehsalçıları tərəfindən böyük razılıqla qarşılanıb.



Mövsüm göstəricilərinə baxsaq, Türkiyədə fındıq ixracı xeyli azalıb. Belə ki, Qara dəniz Fındıq və Məmulatları İxracatçılar Birliyinin məlumatına görə, 2018-2019-cu il mövsümünün 11 ayında Türkiyə 262 min tona yaxın fındıq ixrac edib, bundan 1 milyard 544 milyon dollar gəlir əldə olunub. Əvvəlki mövsümün eyni dövründə ixracat 275 min 843 ton, əldə olunan gəlir isə 1 milyard 720 milyon 534,717 min dollar təşkil etmişdi.

Dünya fındıq bazarında son illərdə gedən proseslər bu məhsulun əsas ixracatçısı olan Türkiyə üçün müsbət qiymətləndirilə bilməz. Bu proseslərin bir qismi keyfiyyətə dair tələblərin sərtləşdirilməsi ilə bağlıdır. Belə ki, dünya fındıq istehlakının 80 faizdən çoxunu həyata keçirən Avropa Birliyi bu məhsulla bağlı tələblərini sərtləşdirir. Bu ildən etibarən Birlik sərhədlərini keçən Türkiyə fındığı 5 faiz daha dərin analiz olunacaq. Belə bir addım 2016-cı ildə də atılmışdı. Bu qərarlar türk ixracatçıların xərclərini artıran addımlar atması, fındıq emalında yeni texnologiyalar cəlb etməsi zərurətini yaradır ki, bu da qiymətləri yüksəldir.

Türkiyənin bazar payına təsir edəcək digər amil Çin, ABŞ və İtaliyada fındıq istehsalına ciddi sərmayələrin qoyulmasıdır. Belə ki, Çində 2017-ci ildən başlayaraq fındıq sahələri sürətlə genişləndirilir. Eyni addımı İtaliya və ABŞ da atır. Bundan əlavə, qeyd etdiyimiz kimi, Azərbaycan və Gürcüstan da istehsalı sürətlə artırmaqdadır. Bu isə Türkiyənin bazar mövqeyinə əlavə təhdidlər formalaşdırır.

Məlum olduğu kimi, fındığın ən böyük istehlakçısı şokolad istehsalçılarıdır. Böyük şokolad istehsalçıları artıq neçə illərdir ayrı-ayrı ölkələrdə fındıq istehsalına sərmayə yatırırlar. Məsələn, "Ferrero", "Nestle" və "Kraft Heinz" kimi şokolad istehsalçısı olan nəhəng firmalar Kanada və Azərbaycan kimi ölkələrdə fındıq istehsalına sərmayə qoyur. Məsələn, "Ferrero" şirkəti Quba rayonunda yerləşən Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutu ilə əməkdaşlığa başlayıb. Bu əməkdaşlıq şəraitində Quba-Xaçmaz regionunda 3 min hektar sahədə İtaliyadan gətirilən yeni fındıq sortlarının əkilməsi nəzərdə tutulur ki, bunun 1500 hektarı artıq əkilib.

Müxtəlif ölkələrdə istehsalın, ixracın artması isə avtomatik olaraq Türkiyənin bazar payının kiçilməsinə səbəb olacaq.

**Azərbaycan fındıq sahələrini 84 min hektara çatdırır**

Azərbaycanda fındıqçılığın inkişaf etdirilməsi son 4 ildə diqqət mərkəzinə gətirilib. Dövlət tərəfindən fındıq tingləri alınaraq, pulsuz olaraq istehsalçılara verilir. 2016-cı ildə Azərbaycanda 40 min hektar fındıq bağları olub, 2019-cu ilədək artıq 75 min hektara çatdırılıb. Bu il isə 9 min hektar fındıq bağının salınması nəzərdə tutulur.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2018-ci ildə Azərbaycandan təmizlənmiş fındıq ixracı 18 223,1 ton təşkil edib. Bundan ixracatçılar 93,5 milyon dollar gəlir əldə ediblər. 21 min tonluq ixracın olduğu 2017-ci illə müqayisədə ixrac 12,3 faiz azalıb. Məhsulun tonunun orta qiyməti 5 131 dollar təşkil edib. 2017-ci ildə bu qiymət 5 515 dollar, yaxud 2018-ci ildən 7,4 faiz baha olub. Ötən ilki qiymət ucuzlaşmasının səbəbi dünya bazarında fındığın qiymətinin müəyyənləşdiyi Türkiyə lirəsinin dəyərdən düşməsi olub.

2018-ci ildə Azərbaycanın fındıq ixracatında əsas yeri Rusiya tutub - 45 milyon 277,99 min dollar dəyərində 9388,9 ton fındıqla. İkinci yerdə olan İtaliyaya 20 milyon 431,38 min dollar dəyərində 3 682 ton fındıq satmışıq. 2017-ci ildə isə Azərbaycan İtaliyaya 9 min tondan artıq fındıq ləpəsi ixrac etmiş və ixracatçılar bundan təqribən 54 milyon dollar qazanmışdılar. İtaliyaya ixracın azalmasının əsas səbəbi Avropa Komissiyasının fındığın tərkibindəki aflotoksin adlı maddənin miqdarına dair tələbləri sərtləşdirməsidir. Aflatoksin dünyada xərçəng xəstəliyinin əsas "yaradıcı"larından biri hesab olunur. Bu xüsusiyyətinə görə Avropa Birliyi onun ayrı-ayrı məhsullarda yol verilən həddini getdikcə azaldır.

1 sentyabr 2018 - 31 mart 2019 tarixləri arasında Azərbaycandan Avropa Birliyi ölkələrinə ixrac olunan fındıq ləpəsi 5 dəfə geri qaytarılıb. Bunlardan 3-ü Almaniya, biri Polşa, biri isə İtaliyadan qaytarılmadır. Bütün imtinaların səbəbi fındıq analizində aflatoksin nisbətinin normadan artıq səviyyədə olması olub.

Bu il Azərbaycanın fındıq ixracında artım müşahidə olunmaqdadır. Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin 6 ayında Azərbaycandan 68 milyon 587.65 min dollar dəyərində 12 570.11 ton meşə fındığı ixrac olunub.

**Gürcüstan dünya bazarındakı mövqelərini bərpa edir**

2017-ci ildən Gürcüstanın fındıq bağları mərmər taxtabiti adlı zərərvericinin hücumuna məruz qalıb. Nəticədə həm məhsuldarlıq kəskin aşağı düşüb, həm də keyfiyyət göstəriciləri. 2018-ci il fındıq ixracı baxımından Gürcüstan üçün ən uğursuz il olub.Gürcüstan Milli Statistika Xidmətinin verdiyi məlumata görə, 2018-ci ildə Gürcüstanda fındıq istehsalı əvvəlki illə müqayisədə 8,1 faiz azalaraq 22,7 min ton olub. İxrac 15,2 faiz azalaraq 12,9 min ton, əldə olunan gəlir isə 16,2 faiz az olmaqla 69,7 milyon dollar təşkil edib. 2016-cı ildə ölkənin ümumi ixracında ikinci yerdə olan fındıq indi heç ilk onluğa da düşmür.

Bu ilin yanvar-iyununda isə Gürcüstan 3,1 min ton fındıq ixrac edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 47,7 faiz azdır. Fındıq ixracından əldə olunan gəlir də altı ayda iki dəfə azalaraq 15,6 milyon dollar təşkil edib.

Maraqlıdır ki, Gürcüstan fındığının ixrac istiqamətində də ciddi dəyişiklik qeydə alınıb. Belə ki, əsasən Avropa Birliyinə ixrac edilən gürcü fındığı 2018-ci ildən daha çox Rusiyaya satılmağa başlayıb.

**Gürcüstan Fındıq Emalçıları və İxracatçıları Assosiasiyasının icraçı direktoru Levan Kardava bildirir ki, son illərdə ixrac həcminin azalması keyfiyyətin fəlakət səviyyəsində enməsi ilə bağlıdır ki, bunun da səbəbi mərmər taxtabitinin fındığa daraşmasıdır. Avropa bazarına daşınan məhsulun azalmasının ikinci səbəbi Türkiyə fındığının ucuz olmasıdır:** "Amma yenə də əsas problem keyfiyyətdir. Buna görə biz praktiki olaraq Avropa bazarında fındıq sata bilmirik. Bizim əsas satış bazarımız Rusiya bazarı olub".

Aparılan aqrotexniki tədbirlər nəticəsində ardıcıl 3 mövsümlük enişdən sonra bu mövsüm Gürcüstanın fındıq istehsalında artımın olacağı gözlənilir. Eyni zamanda bu mövsümün ilk günlərində aparılan analizlər fındığın keyfiyyətində ciddi müsbət dəyişikliklərin olduğunu göstərib. Bu isə Avropa Birliyinə gömrük rüsumu olmadan daxil olmaq imkanı əldə edən Gürcüstan fındığının yenidən Avropada Azərbaycan, eləcə də Türkiyə fındığına əsas rəqiblərdən birinə çevriləcəyi deməkdir.

Bütün bunlar deməyə əsas verir ki, həm də bir-birinə rəqib olan 3 ölkə arasındakı razılaşma dünya fındıq bazarındakı yeni təhdidlərə qarşı birgə fəaliyyətin qurulması, istehsalçıların zərərinə olan qiymət endirimlərinin önlənməsi baxımından, ən əsası isə bazarda özlərinə sərf edən qaydaları müəyyənləşdirmək üçün mühüm əhəmiyyət kəsb edir. Yetər ki, ən böyük istehsalçı olan Türkiyə digər iki tərəfin mövqeyini nəzərə alsın...

**Dünya SAKİT,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 165 (7335) 8 avqust 2019

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# İrəvanın blefi, Bakının fürsəti: danışıqlara son, yoxsa...

## Ekspertlər Paşinyanın son sərsəmləməsinin ardınca Qarabağda sülh və müharibə şanslarını dəyərləndirdilər; **politoloq:** "Ermənistanı mütləq ağır itkilərə məruz qoymaq lazımdır ki..."

**Ermənistanın baş naziri Nikol Paşinyanın iki gün əvvəl Xankəndində keçirilən mitinqində verdiyi təxribatçı açıqlama hər şeydən öncə bir sualı aktual edib: bu düşüncədə olan Ermənistan rəhbəri ilə Qarabağa dair sülh danışıqlarını davam etdirməyin lüzumu qalırmı? Suala sözsüz ki, həm də ATƏT-in Minsk Qrupunun həmsədrləri cavab verməlidirlər.**




Vasitəçilər isə nə Paşinyanın son bəyanatına - "Dağlıq Qarabağ Ermənistandır, vəssalam" açıqlamasına, nə də işğal altındakı Azərbaycan ərazilərinə onun intensivləşən qanunsuz gəliş-gedişinə reaksiya verməyə tələsirlər. Demək, onsuz da dalanda olan danışıqlar prosesini irəli aparmaq bundan sonra qat-qat çətin olacaq. Müharibə variantı daha ciddiliyi ilə gündəmə gələcək. Çünki öz xalqını aldadan Nikol Paşinyana görə Dağlıq Qarabağın yekun taleyi artıq həll olunubsa, Azərbaycana öz ərazi bütövlüyünü təmin eləmək üçün silaha əl atmaqdan savayı yol qalmır.

Zatən, az öncə çıxışlarının birində Nikol Paşinyan özü də sələflərindən fərqli olaraq, etiraf eləmişdi ki, Qarabağ müharibəsi hələ bitməyib. Siyasi şərhçilər də vəziyyətə əsasən bu kontekstdə qiymət verirlər. Eyni zamanda belə bir məqama da diqqət yönəldirlər ki, işğalçı ölkənin sabiq prezidentlərindən heç biri, nə Levon Ter-Petrosyan, nə Robert Köçəryan, nə də Serj Sərkisyan belə bir qələtdə bulunmayıblar. Yəni Dağlıq Qarabağın Ermənistana birləşdirildiyini söyləməyiblər - təbii ki, sırf erməni hiyləgərliyi və taktiki mülahizələr baxımından, formal sülh danışıqlarında axırıncı qapının da qapanmaması naminə.

*****

**Nikol Paşinyanın Qarabağla bağlı söylədiyi fikirlərin əsas mahiyyətindən danışan politoloq Erkin Qədirli deyir ki, erməni baş nazirin Ermənistanda ciddi problemləri var:** "O, seçkilərdə verdiyi sosial-iqtisadi vədləri hələ də gerçəkləşdirə bilməyib, ölkəyə xarici maliyyə yatırımlarını, özəlliklə diaspora ermənilərinin sərmayələrini cəlb edəcəyini söyləmişdi, amma bunu bacarmayıb (ona görə də Xankəndində erməni milyarderlərinə və milyonçularına yenidən səsləndi). Paşinyanın Qarabağ klanı ilə ciddi problemləri var - qarabağlıların orduda nüfuzu hələ də güclüdür, üstəlik, onlar Moskvaya bağlıdırlar. Problem ondadır ki, xalqın dəstəyilə hakimiyyətə gəlmək olur, amma hakimiyyətdə qalmaq üçün bu dəstək yetərli deyil. Paşinyan indi bunu aydın görə bilir, ona görə də mitinqlərdən əl çəkmir. Paşinyanın gücü küçədədir, küçə gücü isə qısa zamanda yox ola bilir".

**E.Qədirlinin sözlərinə görə, Bakının razılığı olmasa, heç kəs Qarabağı Ermənistanın ərazisi kimi tanımayacaq.** "Bakı da buna razılıq verməyəcək. Üstəlik, heç kim Dağlıq Qarabağa görə Bakı ilə münasibətini pozmaq istəməyəcək. Bu, kimsənin marağında deyil. Odur ki, Paşinyanın söylədikləri populizmdən başqa bir şey deyil və erməni dilində bildirilən mənalardan kənara çıxdıqda önəmini itirir", - deyə o əlavə edib.

*****

"Paşinyanın Dağlıq Qarabağla bağlı heç bir strategiyası yoxdur. O, situasiyaya uyğun hərəkət edən və mitinqlər zamanı emosional vəziyyətdə, ekstaza gəlib müxtəlif fikirlər söyləyən şəxsdir. Bu günə qədər onun Dağlıq Qarabağla bağlı səsləndirdiyi fikirlərə diqqət yetirsək, onların bir neçə istiqamətə haçalandığına şahid olarıq".

**"Yeni Müsavat"ın məlumatına görə, bu sözləri Axar.az-a açıqlamasında politoloq Elçin Mirzəbəyli deyib. Onun sözlərinə görə, son çıxışı ilə Paşinyan faktiki olaraq Ermənistanın işğalçı siyasətini dilə gətirib:** "Daha öncə o, Qarabağın müstəqil hüququn subyekti kimi danışıqlar prosesinə cəlb olunmalı olduğunu və Dağlıq Qarabağdakı ermənilərin ona səs vermədiyi üçün onların adından danışa bilməyəcəyini deyirdisə, indi o, Dağlıq Qarabağı Ermənistanın tərkib hissə elan edir. Faktiki olaraq Paşinyan bununla işğal siyasətini dilə gətirir və tərəf olduğunu ortaya qoyur. Bu, indiyədək onun səsləndirdiyi fikirlərdəki ziddiyyət faktorudur. İkincisi, bu, 1989-1990-cı illərdə Ermənistan Ali Sovetində Dağlıq Qarabağın Ermənistana birlədirilməsi ilə bağlı qəbul edilən iki qərara faktiki olaraq növbəti dəfə qayıdılması deməkdir. Bu da bütövlükdə Minsk prosesini inkar edir. Nəzərinizə çatdırım ki, 1990-cı il yanvarın 10-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti həmin qərarları ləğv etmiş və onun SSRİ konstitusiyasına zidd olduğunu bəyan etmişdi. Bu aspektdən təbii ki, həmin qərarlar qüvvəsini itirmişdi".

**Politoloq hesab edir ki, hazırda başlanan bu proses 1994-cü ildən bu yana aparılan Minsk prosesinin inkar olunması deməkdir:** "Paşinyanın bu bəyanatına ilk reaksiyanı ATƏT-in Minsk Qrupu həmsədrləri verməlidirlər. Çünki bu, bilavasitə onların səlahiyyətinə aiddir. Paşinyan belə yanaşma tərzi ilə dolayı yolla Minsk prosesindən çıxdığını bəyan edib".

**E.Mirzəbəyli Paşinyanın son bəyanatının müharibə çağırışı kimi də qəbul edilə biləcəyini deyib:** "Bu, digər tərəfdən müharibə çağırışıdır. Ermənistanı burada mütləq ağır itkilərə məruz qoymaq lazımdır ki, Paşinyan və yaxud qeyrisi belə iddialı bəyanatlar verməkdən çəkinsin. Əgər söhbət danışıqlar prosesinə son qoyulmasından və Ermənistanın Dağlıq Qarabağın birləşdirilməsi istiqamətində hüquqi addım atmasından gedəcəksə, o zaman danışıqlar prosesinin davam etdirilməsinə hər hansı ehtiyac qalmayacaq. Şübhəsiz, bu zaman hərbi əməliyyatların keçirilməsi, Azərbaycan torpaqlarının işğaldan azad edilməsi labüd olacaq. Burada artıq bütün beynəlxalq konsvensiyalardan, regiondakı sabitliyin, təhlükəsizliyin qorunmasından irəli gələn bütün amillər yox olur və ortaya yalnız müharibə faktoru çıxır".

*****

Beləliklə, Nikol Paşinyanın son blefi əslində Bakının əlinə işləyir, torpaqların bu dəfə daha böyük bir qismini işğaldan azad eləmək üçün Azərbaycana hərəkətə keçmək fürsəti yaradır. Söhbət minimum yeni bir uğurlu lokal hərbi əməliyyatdan gedir - hansı əməliyyat ki, Paşinyan iqtidarına, bütövlükdə erməni toplumuna Dağlıq Qarabağ məsələsində konstruktiv mövqe tutmaqdan savayı yolun olmadığını əyani göstərsin. Erməni baş nazir bir daha belə sərsəmləmələri dilə gətirməsin...



# Məşhur təşkilatdan Qarabağ səhvi - nazirlik hərəkətə keçdi

**Dünyanın məşhur elm və təhsil təşkilatlarından olan "National Geographic" Cəmiyyətinin dərc etdiyi və uşaqların məlumatlandırılması məqsədini daşıyan "National Geographic Kids" jurnalının internet səhifəsində ölkəmizlə bağlı təqdim edilən məlumatda Azərbaycan xəritəsində ciddi təhrifə yol verildiyi və ölkəmizin işğal edilmiş Dağlıq Qarabağ bölgəsinin fərqli rəngdə təsvir olunduğu müəyyən edilib.**

Bununla əlaqədar Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Azərbaycan Respublikasının ABŞ-dakı səfirliyi ilə birgə operativ tədbirlər görüb. Musavat.com xəbər verir ki, bu barədə nazirlikdən bildirilib.

Nəticədə Azərbaycan Respublikasının xəritəsinə münasibətdə yol verilmiş təhrif aradan qaldırılıb. NRYTN və Azərbaycanın ABŞ-dakı səfirliyinin operativ müdaxiləsi nəticəsində adıçəkilən jurnalın internet səhifəsində respublikamızın xəritəsi artıq dəqiq və ərazi bütövlüyü qorunmaqla təsvir edilib.

YENİ MÜSAVAT
N 165 (7335) 8 avqust 2019

# İki nəhəngin pul davası Bakı neftini 30 dollar edə bilər

## ABŞ-la Çin arasında ticarət müharibəsi Azərbaycana nə vəd edir?

**ABŞ-la Çin arasında ticarət müharibəsi dünya iqtisadiyyatına neqativ təsirlərini göstərməyə başlayıb. Vaşinqtonun Çindən 300 milyard dollarlıq idxal mallarına 10% rüsum tətbiq etməsi ilə bağlı qərarından sonra yuanı ucuzlaşdıraraq son 11 ilin rekordunu qıran rəsmi Pekin geri addım atmaq niyyətində deyil. Belə ki, Çin Xalq Bankı ölkənin milli valyutası olan yuanın kursunu daha 0,7% ucuzlaşdırıb. Beləliklə də Çin mallarının idxalına ABŞ-da tətbiq edilən rüsumlara qarşı dözümlülük nümayiş etdirilir. Çin tərəfinin bu qərarı Tramp administrasiyasının etirazına səbəb olub. Prezident Donald Tramp Çini valyuta manipulyasiyasında ittiham edib. Tramp bildirib ki, Çinin ucuz yuan yaratmaqda fikri dünya bazarını ucuz mallarla zəbt etməkdir.**

Çin digər bir addım da ataraq, ABŞ-dan kənd təsərrüfatı məhsullarının idxalını müvəqqəti dayandırıb və bu məhsullara rüsum artımını da nəzərdən keçirir. Bu barədə Çin Ticarət Nazirliyi məlumat yayıb. Dövlət Şurasının Tariflər Komitəsi avqustun 3-dən sonra alınan ABŞ kənd təsərrüfatı məhsullarının tədarükünə idxal rüsumunun artırılacağını istisna etmir. Çin müəssisələri artıq ABŞ-dan kənd təsərrüfatı məhsullarının alışını dayandırıblar. Bu isə Amerikada fermerlərə ciddi zərbə vurub. Bu zərbənin təsiri hətta narazı fermerlərin növbəti prezident seçkisində Trampı dəstəkləməkdən imtina etməsinə qədər gedib çıxa bilər.



**Lakin Çinin mövqeyi ABŞ-la müqayisədə o qədər də kəskin deyil və qarşı tərəfin davranışından asılıdır. Bu ölkənin BMT-də daimi təmsilçisi Zanq Cun ABŞ-ın atacağı hər cür addıma hazır olduqlarını dilə gətirib:** “ABŞ istər danışıqlara, istərsə də savaşa başlasa, biz hər ikisinə hazırıq. Çinin mövqeyi bəllidir. Biz lazım gələrsə, danışıqlara getməyə də hazırıq. Mən ABŞ-ı doğru və ədalətli addımlar atmağa çağırıram və inanıram ki, bu çağırışa müsbət cavab veriləcək”.

**Baş verənlər neftin dünya bazarındakı qiymətinə də təsir göstərib. Tramp administrasiyası ilə Çin hökuməti arasında gedən soyuq müharibənin dünya bazarlarına təsirini dəyərləndirən iqtisadçı ekspert Vüqar Bayramov qeyd edib ki, neftin dünya bazar qiyməti son 8 ayda ən aşağı səviyyəyə düşüb:** “Brent markalı neftin 1 barelinin qiyməti artıq 59 dollardan ucuz satılır. Ötən həftə proqnozlaşdırdığımız kimi, neftin dünya bazar qiymətində azalmaların davam etməsi gözlənilən idi və yeni qiymət enmələri də istisna olunmur. Belə ki, ABŞ-ın sentyabr ayından etibarən daha 300 milyard dollarlıq Çin məhsuluna əlavə 10 faiz idxal vergisi tətbiq etmək istəyi ticarət müharibəsində yeni mərhələ başlatdı. Ticarət müharibəsinin genişlənməsi qlobal iqtisadi artım tempini aşağı salaraq neftə olan tələbi azaldır. Digər tərəfdən, qlobal iqtisadi gərginliyin artması fonunda Çinin İran neftinin idxalını bərpa edəcəyi də müzakirə mövzusudur. Bu baş verəcəyi halda neftin 1 barelinin qiyməti 30 dollaradək azala bilər. Şist neft hasilatında da artımların olduğunu nəzərə alsaq, indi qlobal arenada heç nə neft ölkələrinin xeyrinə dəyişmir”.

**İqtisadçı vurğulayıb ki, neftin dünya bazar qiymətində kəskin enişlər olarsa, ölkəmizə daxil olan valyutanın həcmi yenidən azaldacaq:** “Azərbaycan ixracatının 90 faizinin enerji məhsullarının olduğunu nəzərə alsaq, ”qara qızıl"ın qiymətinin ölkəyə daxil olan valyutanın həcminə təsirlərini müəyyənləşdirmək çətin olmaz. Azərbaycan üçün neftin bir barelinin qiymətinin 60 dollardan aşağı olması fiskal, 50 dollardan az olmasının isə monetar təsirləri var. Neftin bir barelinin 2019-cu ilin dövlət büdcəsində qiyməti 60 dollar nəzərdə tutulub. Bütün hallarda neft ölkələri yeni neft şokuna indidən hazırlaşmalıdırlar".

**İqtisadçı ekspert Natiq Cəfərli də “Yeni Müsavat”a danışarkən vurğuladı ki, Çinlə Amerika arasında ticarət və gömrük müharibələrinin Azərbaycana birbaşa deyil, dolayı təsirləri var:** “Azərbaycan iqtisadiyyatı spesifik xüsusiyyətlərə malikdir. Çox primitiv bir modeldir, dünya valyuta və neft müharibələri Azərbaycan manatına da təsir etmir. Çünki manatın məzənnəsi Mərkəzi Bank tərəfindən tənzimlənir. Ancaq dünyada baş verən iqtisadi müharibələr bütün dövlətlərə, o cümlədən də Azərbaycana təsirsiz ötüşmür. İndi neft uzun müddətdən sonra yenidən 59 dollara düşüb. Son zamanlar neftin qiymətinin qalxması gözlənilirdi, çünki İran ətrafında, Hörmüz boğazında ciddi problemlər yaşanırdı. Ancaq bütün bunlara baxmayaraq Çin-Amerika gərginliyi, ticarət müharibələri neftin qiymətində ucuzlaşmaya səbəb oldu. Bu baxımdan iki dövlət tərəfindən atılan addımların dolayısı ilə Azərbaycana təsirləri var. Dövlət büdcəsində neft 60 dollardan proqnozlaşdırılıb və büdcə gəlirləri bu baxımdan hesablanıb. 60 dollardan aşağı olan istənilən qiymət Azərbaycan üçün təhlükə zənginin çalınması deməkdir. Ancaq hazırda ciddi risk yoxdur, büdcədə neft 60 dollar götürülsə də, dünya bazarında ”Brent" markalı neftin qiyməti 59 dollardır. “Azerlight” markalı neft isə 61 dollara yaxındır. Ancaq uzun müddət bu dəhlizdə qalsa, Azərbaycan iqtisadiyyatına ciddi dalğalanmalar gətirəcək. Manatın məzənnəsi ilə də bağlı gələcəkdə ciddi problemlərin yaşanması ehtimalı artacaq".

❑ **Nərgiz LİFTİYEVA, “Yeni Müsavat”**

---

**Azərbaycan Kəşmirlə bağlı fövqəladə toplantıya çağırıldı- Bakının mövqeyi nədir?**

# Fərəc Quliyev: “Kəşmiri Dağlıq Qarabağla müqayisə etmək olmaz”
# Elçin Mirzəbəyli: “Yaranmış vəziyyət kifayət qədər ciddi və təhlükəlidir”

**Hindistan prezidenti Ram Nat Kovind Cəmmu Kəşmir ştatını xüsusi statusdan məhrum etməklə bağlı fərman imzalayıb. APA-nın “RİA Novosti”yə istinadən verdiyi xəbərə görə, parlamentin 366 deputatı təşəbbüsün lehinə, 66-sı isə əleyhinə səs verib. İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Kəşmirlə bağlı fövqəladə iclas çağırıb.**

1news.az xarici mətbuata istinadla xəbər verir ki, iclası bu gün Səudiyyə Ərəbistanının Ciddə şəhərində keçiriləcək.

İclasda Pakistan, Səudiyyə Ərəbistanı, Azərbaycan, Türkiyə və digər üzv dövlətlərin nümayəndələri iştirak edəcək.

Azərbaycanın bu məsələdə nə cür mövqe sərgiləməsi ciddi müzakirə olunur.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev “Yeni Müsavat”a bunları deyib:** “Sizin gündəmə gətirdiyiniz və qoyduğunuz sual çox maraqlıdır. Bu Azərbaycanın maraqları baxımından xeyli dərəcədə mürəkkəb və məsuliyyətli bir məsələdir. Ölkəmizdə baş verən proseslər, dünyanın buna baxışı bizim üçün çox önəmlidir. Bizim bölgə həddindən artıq mürəkkəb bölgədir. Kəşmir də çox mürəkkəb bölgədə yerləşir. Əvvəllər Monqol imperiyasının tərkibində olub. Hindistan və Pakistan yaranandan sonra bura mübahisəli ərazi kimi götürülüb. Ötən əsrin 50-ci illərində qərar veriblər ki, ştat şəklində Hindistana daxil olsunlar. İndi bunun ştat şəklində ləğv edilməsi həmin qərarın qüvvədən düşməsi anlamına gəlir. Belə olan halda Hindistan və Pakistan arasında münaqişə yenidən alovlana bilər. Kəşmiri Dağlıq Qarabağla müqayisə etmək olmaz. Çünki Azərbaycan unitar dövlətdir. Adını münaqişə qoysalar da, bizdəki əslində müharibədir. Azərbaycana hücum olunub, ərazilərimiz işğal edilib. Lakin ona istinad edə bilərik ki, 1972-ci ildə BMT-nin iştirakı ilə bu ərazinin bölünməsi üçün Hindistan-Pakistan danışıqlarındakı ərazi bütövlüyünü, beynəlxalq konvensiyaları tanıyırıq. Amma başqa cür mövqe nümayiş etdirsək, Kəşmirin hara aid olduğunu qeyd etsək, bu bizim tərəfdən qanamayan yerdən qan çıxarmaq kimi bir şeydir. Amma bütün hallarda Azərbaycanın unitar dövlət olması nəzərə alınmalıdır”.







**Politoloq Elçin Mirzəbəyli vəziyyətin kifayət qədər gərgin olduğunu düşünür:** “Kəşmir problemi kifayət qədər ziddiyyətli və beynəlxalq hüquqda birmənalı həlli mexanizmləri olmayan bir problemdir. Hindistanın 1956-cı ildə qəbul edilmiş inzibati ərazi bölgüsünə uyğun olaraq Kəşmirin bu ölkənin sərhədləri çərçivəsində olan ərazilərinə ştat statusu verilib. Hindistan ştatları öz qanunvericilik orqanlarına və nazirlər kabinetinə malikdir ki, bu da Kəşmirdə yaşayan müsəlmanların ştatın idarə olunmasında iştirakını təmin edirdi. Kəşmirin statusunun ləğvindən sonra bu ərazi federal orqanlara tabe etdiriləcək və mərkəzdən idarə olunacaq. Bu isə Kəşmirdə mütləq çoxluq təşkil edən müsəlmanların idarəçilikdən kənarda qalması deməkdir. Hindistan bu addımı atmaqla bir daha Kəşmirin mübahisəli ərazi olmadığını və Hindistana məxsus olduğunu vurğulamağa çalışıb. Məlum olduğu kimi, Kəşmir ərazisinin 2169 kvadrat kilometri Pakistanın nəzarətindədir. Azad Kəşmir adlanan bu ərazinin dövlət statusu, hətta formal olsa da belə öz ordusu var. Hindistan-Çin müharibəsindən sonra 1962-ci ildə Pakistanla Çin arasında sərhədlərin demarkasiyası ilə bağlı müqavilə imzalanıb. Kəşmirin bir hissəsi üzərində nəzarət Pakistan üçün mühüm əhəmiyyət kəsb edir. Çünki bu ərazi Hindistanın birbaşa Mərkəzi Asiya bölgəsinə çıxışını məhdudlaşdırır, Pakistana isə müttəfiqi Çinlə ümumi sərhədlərinin olmasına imkan verir. Qeyd edim ki, bu müttəfiqlik Pakistana heç də ucuz başa gəlməyib. Demarkasiya nəticəsində Pakistanın nəzarətində olan, Hindistanın isə öz ərazisi hesab etdiyi Şaksqam vadisi Çinin nəzarətinə keçib. Bundan əlavə, Çin Kəşmirin bir hissəsi sayılan Aksayçin adlanan ərazini də 1950-ci ildə özünə birləşdirib. Cəmmu və Kəşmir ştatına verilən xüsusi statusun ləğvinin əsas səbəblərindən biri də Hindistanda aşırı millətçi ”Bxarata canata parti"nin parlament çoxluğunu ələ keçirməsidir. Bəs Hindistanın bu qərarından sonra hansı hadisələrin baş verməsi gözlənilir? Eyni addım Pakistan tərəfindən də atıla bilər. Yəni Pakistan Kəşmirin nəzarətində olan 2169 kvadrat kilometr ərazini federal strukturlara tabe etdirə və bölgənin statusunu ləğv edə bilər. Qeyd edim ki, münaqişənin həlli ilə bağlı BMT tərəfindən təklif edilən və müzakirə olunan həll variantlarından biri də Azad Kəşmirin Pakistana, Cəmmu-Kəşmirin isə Hindistana aid olduğunun tanınmasıdır. Kəşmirin Hindistanın sərhədləri çərçivəsindəki hissəsinə daxil olan ərazisində yaşayan müsəlman çoxluğun etirazlarının güclənməsi və silahlı qarşıdurmaya çevrilməsi ehtimalı da az deyil. Əslində yaranmış vəziyyət kifayət qədər ciddi və təhlükəlidir. Hindistan da, Pakistan da nüvə dövlətidir. Bu, çəkindirici faktor rolunu oynayır. Amma qarşıdurmanın öz məcrasından çıxmayacağına və nüvə silahından istifadə olunmayacağına da heç kim zəmanət verə bilməz. Azərbaycanın bu məsələyə münasibətinə gəldikdə isə ölkəmiz hər zaman olduğu kimi beynəlxalq hüququn prinsiplərindən və öz maraqlarından çıxış etməlidir. Münaqişənin həllinə dair BMT Təhlükəsizlik Şurasının 47 saylı qətnaməsi var. Doğrudur, bu qətnaməyə tərəflərdən heç biri əməl etmir və qətnamənin tələbləri məcburi xarakter daşımadığı üçün də təsir gücünə malik deyil. Amma buna baxmayaraq, BMT TŞ-nin 47 saylı qətnaməsi münaqişənin həllində beynəlxalq statusu olan əsas sənəd sayılır".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 165 (7335) 8 avqust 2019

# Erkən nikah problemi

## Azərbaycan da erkən nikahdan əziyyət çəkir, dünya ölkələri də - çıxış yolu nədir?



**Son bir həftədə Azərbaycanda erkən nikah məcburiyyətinə görə iki qız uşağı intihar edib. Onlardan biri dünyasını dəyişib, digəri isə ağır vəziyyətdədir. Bu isə ölkəmizdə erkən nikah probleminin nə qədər aktual olması ilə bağlı mövzunu gündəmə gətirir.**

"Yeni Müsavat" məsələ ilə bağlı dosye hazırlayıb.

"Save the Children" təşkilatı tərəfindən açıqlanan hesabatda bildirilir ki, dünya miqyasında 700 milyon qız uşağı 18 yaşından kiçik olarkən evləndirilib. Təşkilata görə, uşaq yaşda evləndirilən qız uşaqlarının sayı ildən-ilə artır. Təşkilatın təxminlərinə görə, bu rəqəm 2050-ci ildə 1 milyard 200 milyona çatacaq.

**Qız uşaqları 10 yaşında evləndirilir**

Əfqanıstan, Yəmən, Hindistan, Somali kimi ölkələrdə qız uşaqlarının 10 yaşında evləndirildiklərinə diqqət çəkilən sənəddə həmçinin qeyd olunub ki, erkən yaşda evliliklər təhsil səviyyəsinin aşağı düşməsi, cinsi xəstəliklərin artması, erkən hamiləliklə bağlı ölümlərin yüksəlməsi kimi fərqli problemləri də paralel gətirir.

**Qız uşaqlarının həyat keyfiyyətində İsveç birinci, Türkiyə 55-ci sıradadır**

"Save the Children" uşaq yaşda evlilik, erkən hamiləlik, ana ölümləri kimi kriteriyalara görə dünya miqyasında 144 ölkəni qız uşaqlarının həyat keyfiyyətinə görə sıralayıb. Buna görə İsveç qız uşaqlarının həyat keyfiyyəti ən yüksək ölkə seçilib. Finlandiya, Norveç, Hollandiya və Belçika ilk beşlikdə yer alan ölkələrdir. Türkiyə 144 ölkə arasında 55-cı sırada yerləşir. Siyahının son üç sırasında isə Orta Afrika Cümhuriyyəti, Çad və Nigeriya kimi ölkələr yer alır.

"Save the Children" təşkilatına görə, dünya miqyasında hər yeddi saniyədən bir 15 yaşdan kiçik bir qız uşağı evləndirilir. Qurumun araşdırmasına görə, Əfqanıstan, Yəmən, Hindistan və Somalinin də aralarında olduğu bəzi ölkələrdə yaşları 10-a qədər azalan qız uşaqları evlənməyə məcbur edilir.

"Save the Children" erkən evliliyin qızları həyatlarının hər qismində dezavantajlı bir vəziyyətə sala biləcəyini yazıb. Qız uşaqlarını erkən evliliyə məcbur edən faktorlar arasında çatışma, yoxsulluq və insani krizlər də yer alır.

"Save the Children"ın rəhbəri Helle Smit bildirib ki, uşaq yaşda evliliklər qız uşaqlarını ən elementar təhsil, inkişaf və uşaq olma haqqından məhrum edir. Erkən evlənən uşaqlar məktəbə gedə bilmir və ailədaxili şiddət, təcavüz və cinsi istismarla qarşılaşma ehtimalları artır. Hamilə qalırlar və HIV də daxil olmaq üzrə cinsi yollarla yayılan xəstəliklərə açıq hala gəlirlər.



Siyahının ən sonunda Çad, Nigeriya, Mərkəzi Afrika Respublikası, Mali və Somali yer alır. 144 ölkənin yer aldığı siyahıda Türkiyə 55-ci sırada, İsveç, Finlandiya və Norveç də ilk üç sırada yerləşir. Bu ölkələri Hollandiya, Belçika və Danimarka izləyir.

Siyahıda İngiltərə 15, ABŞ isə 32-ci sıradadır.

Sənəddə həmçinin qeyd edilib ki, qaçqın düşərgələrində yaşayan qız uşaqları daha çox erkən evlənmə təhlükəsi altındadılar. Çoxlu sayda qaçqın ailə qız uşaqlarını yoxsulluqdan və cinsi istismardan qorumaq üçün evləndirirlər.

Araşdırma çərçivəsində Liviyada yaşayan 13 yaşlı bir suriyalı uşağın yaşadıqları yer alır. 20 yaşındakı bir oğlanla evləndirilən, şərti adı Sahar olan qız aşağıdakıları deyib: **"Toy günü çox gözəl bir gün olacaq deyə düşünürdüm, amma olmadı. Kasıblıq, bədbəxtlik dolu idi. Uşağım olduğu üçün çox şanslıyam. Amma mən uşaq böyüdən bir uşağam".**

UNICEF-in təxminlərinə görə, 2030-cu ildən etibarən uşaq ikən evləndirilən qadınların sayı bugünkü 700 milyondan 950 milyona çıxacaq.

**Uşaq evlilikləri**

Birləşmiş Millətlər Təşkilatı 18 yaşdan kiçikləri "uşaq" kimi tanıyır. Mütəxəssislər isə bildirirlər ki, qız uşaqlarının məcbur edildiyi nikahlar təkcə onların uşaqlıqlarını əlindən almır, oğurlamır. Eyni zamanda öz gələcəklərini müəyyənləşdirmək şansını da yox edir. Beynəlxalq təşkilat 700 milyondan çox olan uşaq evliliklərinin 2030-cu ilə qədər sonlandırılması çağırışını edib. Problem həll olunmayacağı təqdirdə bu say 2030-cu ildə 950 milyon və 2050-ci ildə 1.2 milyard olacaq.

18 yaşından əvvəl evlənən qız uşaqlarının bölgələrə görə təsnifatına baxanda isə görürük ki, ən çox "uşaq gəlinlər" 285 milyon rəqəmlə Cənubi Asiyadadır. Cənubi Asiyanı 115 milyonla Afrika, 75 milyonla Şərqi Asiya, 35 milyonla Orta Şərq və Cənubi Afrika, 60 milyonla Latın Amerikası və qalan rəqəmi ilə digər bölgələr izləyir.

Uşaq nikahlarının yayılması keçən 10 il boyunca yüzdə 15 faizlə azalsa da, uşaqlıqda evlənən qızların ümumi sayı ildə 12 milyona çatır.

**Amerikada uşaq evliliklərinə qanuni qadağa yoxdur**

Pev Araşdırma Mərkəzi tərəfindən aparılan araşdırmaya görə, ABŞ-da 2014-cü ilə qədər 15-17 yaş arası 57 min 800 uşaq evlənib. Sözügedən rəqəm ölkənin ştatlarına görə dəyişiklik göstərir.

Məsələn, Qərbi Virciniya və Teksas uşaq evlilik faizinin ən geniş yayıldığı ştatların başında yer alır. Oklahoma, Arkanzas, Tennesse, Cənubi Karolina, Nevada və Kaliforniyanın da daxil olduğu digər bəzi ştatlar uşaq evliliyi ilə bağlı orta statistikanın üzərində bir faizə sahibdilər.

Uşaq evliliyi ABŞ-ın demək olar ki, hər ştatında qanunidir. Ən azı 36 ştatda uşaqlar məhkəmə qərarı ilə evlənə bildikləri halda, 34 ştatda isə 16 və 17 yaşındakılar valideynlərinin icazəsi ilə evlənə bilirlər.

ABŞ-da uşaq evlilikləri sahəsində araşdırmalar aparan bəzi qeyri-hökumət təşkilatlarının rəqəmlərinə görə, bu ölkədə 2000-2015-ci illərdə yetkinlik yaşına çatmayan 200 mindən çox insan qanuni olaraq evləndi. Buna görə, Teksasda 2000-2014 tarixlərində təxminən 40 min uşaq evləndiyi halda, bu ştatı 2000-2017-ci illərdə 16 min 400 uşaq evliliyi ilə Florida təqib edir. Nyu-Yorkda isə 2000-2010-cu illərdə 3 min 800-dən artıq uşaq evliliyi baş tutub. Virciniyada 2004-2013-cü illərdə təxminən 4 min 500, Alabamada isə 2000-2015-ci illərdə 8 min 600 uşaq evlənib.

**Qız uşaqları ev işlərində də çalışır**

Dünya miqyasında 5-9 yaş arasındakı qız uşaqları həftədə orta hesabla 4 saatını, 10-14 yaşlı qız uşaqları da 9 saatını ev işləri ilə keçirir. Bəzi bölgə və ölkələrdə isə bu rəqəm iki qatına çıxa bilir.

Somali, Efiopiya və Ruandada 5-14 yaş qrupuna daxil olan qız uşaqlarının yarıdan çoxu həftədə ən azı 14 saatını, ya da gündə ən azı 2 saatını ev işləri görərək keçirir. Bu faizlər sıra ilə Somalidə 64, Efiyopiyada 56 və Ruandada da 48 faizdir.

**Kriz yaşanan ölkələrin qurbanları "qız uşaqları"dır**

Qlobal bir ortaqlıq olan "Girls Not Brides"ın (GNB) araşdırmalarına görə, dünyada erkən yaşda evlənmə halları artarsa, 2050-ci ildə bu qadınların sayı 1.2 milyarda çatacaq. Ailələr xüsusən də kriz dönəmlərində uşaq evliliklərini daha böyük maddi problemləri həll etmə və qızlarını şiddətdən qoruma yolunda bir çıxış yolu kimi görürlər. Uşaq evliliklərinin ən yüksək olduğu 20 ölkədən 7-si ən böyük insani krizlərlə qarşı-qarşıyadır.

Yəməndə uşaq evlilikləri siqnalverici dərəcədə yüksəlib. Ölkədə qız uşaqlarının 65 faizi 18 yaşından kiçik yaşda evləndirilir. Bu faiz müharibədən öncə 50 faiz idi.

İraq və Suriyada terrorist qruplar qız və qadınları qaçırıb təcavüz edir, satır və ya evliliyə məcbur edirlər. Özəlliklə də yezidi etnik azlıqlar bu vəziyyətdən daha çox zərər görüb.

Somalidə 2010 və 2011-ci ildə qız uşaqları məktəbdən qaçırılaraq terror təşkilatı üzvləri ilə evləndirildi. Uşaqlarını vermək istəməyən ailələr öldürüldü və ya təhdid edildi. Bəzi hallarda uşaqlar məhz ailələrini qorumaq məqsədilə uşaq yaşda evliliyə razılıq verib. Şri-Lankada yaşanan müharibə dövründə terrorist qrupun evli qızlara toxunmayacağını düşünən valideynlər bu səbəbdən qızlarını kiçik yaşda evləndirdi.

Liviyada ölkələrindən qaçaraq bura sığınan suriyalı qızların 41 faizi 18 yaşından öncə evləndi. İndoneziya, Hindistan, Şri Lanka, Nepal, Mozambik kimi ölkələrdə keçmiş illərdə yaşanan zəlzələ, quraqlıq, sunami kimi təbii fəlakətlərə görə xüsusən də yoxsul ailələr qız uşaqlarını ya qorumaq, ya da ailənin xərclərini azaltmaq üçün evləndirib.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 165 (7335) 8 avqust 2019

# Paytaxtda Qurban bayramı hazırlıqları

## Bu il kəsim yerlərinə 3 qurum birdən nəzarət edəcək



**Qurban bayramı ərəfəsi Bakının müxtəlif yerlərində qurbanlıq qoçlar satışa çıxarılıb. Qoçların qiyməti 170-180 manat arasında dəyişən qiymətlərlə müşayiət olunur. Bu, ötən illərlə müqayisədə qiymətlərin artmasını göstərir. Məsələn, 2017-ci ildə qurbanlıq quzular 140 manatdan başlayan qiymətlə satılırdı...**

Ekspertlər bildirirlər ki, qurbanlıq heyvanların qiymətinin bahalaşması, ölkədə son illər ətin qiymətinin qalxması ilə əlaqədardır. Qiymətlər bahalaşsa da, bu il Qurban bayramı ötən illərdən fərqli keçəcək. Belə ki, müvafiq qurumlar artıq indidən kəsim yerlərinə ciddi nəzarət edirlər.

Kənd Təsərrüfatı Nazirliyindən "Yeni Müsavat"a bildirilib ki, bu il Qurban bayramı münasibətilə bayram yarmarkası keçiriləcək: "Sosial dəstək mahiyyəti daşıyan "Kənddən şəhərə" yarmarkasının əsas məqsədi azgəlirli ailələrin qurbanlıq qoyunlara olan tələbatını dolğun şəkildə ödəmək, istehlakçıların seçim imkanlarını artırmaq və bayramla əlaqədar bazarlarda yaranacaq süni qiymət artımının qarşısını almaqdır. Bayram günlərində təşkil ediləcək qurbanlıq qoyunların satış yarmarkası ölkə ərazisində 30 fərqli nöqtəni əhatə edəcək. Satış yarmarkalarından 19-u paytaxt Bakıda təşkil ediləcək. "Kənddən şəhərə" satış yarmarkasına 20000-ə yaxın qurbanlıq qoyun çıxarılması planlaşdırılır. Qoyunların qiymətləri çəkilərinə uyğun olaraq 160, 170 və 180 manat dəyərində müəyyənləşdirilib".

Avqustun 6-da Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı və Daxili İşlər nazirlikləri Qurban bayramı münasibətilə birgə açıqlama yayıb. Açıqlamada bildirilib ki, adi günlərlə müqayisədə daha çox heyvanın kəsimi və satışının həyata keçirildiyi Qurban bayramında qurbanlıq heyvanın kəsiminin qaydalara uyğun, sanitar-gigiyena tələbləri çərçivəsində həyata keçirilməsinə xüsusi diqqət yetirilməlidir:

"Kəsimdən əvvəl və sonra müvafiq baytarlıq müayinəsinin keçirilməsi heyvandan insana keçə biləcək xəstəliklərin qarşısının alınması baxımından zəruri şərtdir. Bayram günlərində Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı və Daxili İşlər nazirlikləri tərəfindən əhalinin təhlükəsiz ət və ət məhsulları ilə təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərin miqyası genişləndirilib.

Bununla əlaqədar bildiririk ki, heyvanların kəsimi və satışı aidiyyəti dövlət orqanlarının müəyyən etdiyi yerlərdə həyata keçirilməli, sanitariya-gigiyena tələblərinə uyğun olmayan küçə, yol kənarları, məhəllələr, parklar və digər ictimai yerlərdə heyvan kəsimi və satışı, eyni zamanda baytarlıq arayışı olmadan iri və xırda buynuzlu heyvanların daşınması yolverilməzdir.

Qurban bayramı ilə bağlı hər üç qurum gücləndirilmiş iş rejimində fəaliyyət göstərəcək. Bayram günlərində heyvan kəsiminin müvafiq qaydada həyata keçirilməsini təmin etmək üçün respublika üzrə 44 stasionar və 30 çadır tipli kəsim məntəqəsi vətəndaşların ixtiyarına veriləcək. Həmin kəsim məntəqələrinin ərazilər üzrə ünvanları artıq media vasitəsilə ictimaiyyətin diqqətinə çatdırılıb. O da qeyd olunmalıdır ki, mütəxəssislərin metodiki tövsiyəsi ilə hazırlanmış çadır tipli kəsim məntəqələrində qurbanlıq heyvanların satışı ilə yanaşı onların kəsimi, hazırlanması və digər xidmətlər yerli icra strukturları tərəfindən təmin ediləcək".





**Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin mətbuat katibi Aysel Fərziyeva "Yeni Müsavat"a bildirib ki, agentlik bayramla əlaqədar gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirir:** "Agentlik əhalinin təhlükəsiz ət və ət məhsulları ilə təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirlərin miqyasını genişləndirib. Hazırda çadır tipli kəsim məntəqələrinin qurulması istiqamətində iş gedir. Çadır tipli kəsim məntəqələri Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssislərinin metodiki tövsiyəsi ilə hazırlanıb. Bu məntəqələrdə qurbanlıq heyvanın satışı ilə yanaşı, onun kəsimi, hazırlanması, doğranması, vətəndaşların istəyinə uyğun şəkildə qablaşdırılması həyata keçiriləcək".

**Bildirilib ki, orada göstərilən bütün xidmətlər isə yerli icra strukturları tərəfindən həyata keçiriləcək:** "Qida Təhlükəsizliyi Agentliyi isə bu sahədə yalnız nəzarət və tənzimləmə funksiyasını həyata keçirir. Bundan əlavə, bayram günlərində kəsim mütləq şəkildə aidiyyəti qurumların müəyyən etdiyi yerlərdə həyata keçirilməlidir. Baytarlıq-sanitariya, gigiyena qaydalarına uyğun olmayan, məhəllələrdə, ictimai yerlərdə heyvan kəsimi və satışı, eləcə də baytarlıq arayışı olmadan iri və xırdabuynuzlu heyvanların daşınmazı yolverilməzdir. Heyvanlar mütləq qeyd edilən yerlərdə kəsilməlidir. Kəsimdən əvvəl və sonra heyvan mütləq baytarlıq müayinəsindən keçirilməlidir. Bütün bunlar insanlara heyvanlardan keçə biləcək xəstəliklərin qarşısının alınması baxımından çox vacibdir. Əgər vətəndaşlar kəsimi, satışı həyata keçirəcəklərsə, mütləq baytarlıq-sanitariya, sanitariya-gigiyena tələblərinə cavab verən stasionar çadır tipli heyvan kəsim məntəqələrinə üz tutsunlar. Bayram günlərində sağlamlıqlarına şübhə etdikləri heyvan olsa, qanunsuz heyvan kəsimi fəaliyyəti ilə rastlaşsalar, mütləq Daxili İşlər Nazirliyinə, Qida Təhlükəsizliyi Agentliyinə və Kənd Təsərrüfatı Nazirliyinə müraciət etsinlər".

❑ Əlì RAÌS,
"Yenì Müsavat"

# 17 yaşında canına qıyanlar - son bir aydakı iki ntihar araşdırılır

## **Komitə rəsmisi:** "17 yaşlı qızların intiharında erkən nikaha məcburetmə faktı öz təsdiqini taparsa, əlavə cinayət işləri açılacaq"

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Cəlilabadda qeydə alınan intihar faktına münasibət bildirib. Komitənin İnformasiya və Analitik Araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov modern.az-ın sorğusuna cavab olaraq bildirib ki, bir ay ərzində bir neçə analoji faktın baş verməsi təəssüf doğurur:**

"Yetkinlik yaşına çatmayan qızların intihar və intihara cəhd faktlarının araşdırılması məqsədilə regionlarda monitorinq komissiyaları vasitəsilə nəzarət davam etdirilir. Eyni zamanda onların ailə üzvləri, yaşadığı ünvandakı qohumları, tanışları tərəfindən məlumatların toplanması istiqamətində işlər aparılır. Hüquq-mühfaizə orqanları, Daxili İşlər Nazirliyi və prokurorluq orqanları tərəfindən cinayət araşdırmalarının tətbiqi işləri davam etdirilir. Bütün özünəqəsdlərlə bağlı Cinayət Məcəllləsinin125-ci maddəsi, özünü öldürmə həddində çatdırma ilə bağlı cinayət işləri açılıb. Hazırda istintaq işləri aparılır".

**E.Səfərov deyib ki, 17 yaşlı qızların intiharında erkən nikaha məcburetmə faktı öz təsdiqini taparsa, əlavə cinayət işləri da açılacaq:** "Belə olan halda, Dövlət Komitəsi tərəfindən Cinayət Məcəlləsinin 176.1-ci maddəsi, qadını nikaha daxil olmağa məcburetmə ilə bağlı əlavə cinayət işi açılması vacib hesab ediləcək. Bu halların araşdırılmasında hüquq mühafizə orqanlarının mövqelərinin tətbiqi vacibdir. Eyni zamanda psixoloqların və sosial işçilərin proseslərə cəlb edilməsi vacibdir ki, ailələrdəki digər uşaqlara təsirlər minimum dərəcədə olsun. Hazırda bu məsələ ilə bağlı prokurorluğun rəyini gözləyirik".

**Şöbə müdirinin sözlərinə görə, bu il ərzində qəbul ediləcək Milli Uşaq Strategiyasının fəaliyyət planı və Məişət Zorakılığının Qarşısının Alınmasında Milli fəaliyyət planı layihələrinin qəbul edilməsi planlaşdırılır:**

"Bu halların aradan qaldırılması üçün tədbirlər nəzərdə tutulub.



Təəssüf ki, bütün dünya ölkələrində olduğu kimi, Azərbaycanda da nikaha məcbur etmə halları yaşanır. Problemin qarşısının alınması üçün koordinasiyalı şəkildə işlər aparılmalıdır. Əsas məsələ vətəndaşlarda formalaşan stereotiplərin dəyişdirilməsi istiqamətində fəaliyyətin daha da gücləndirilməsidir".

**Komitə rəsmisi erkən nikaha məcbur etmənin ziyalı ailələrində də qeydə alındığını vurğulayıb:**

"Bakı həm ziyalılıq səviyyəsinə, həm ali təhsil alanların sayına görə öndədir. Amma Bakıda da erkən nikaha məcur etmə halları var. Monitorinqlər göstərir ki, erkən nikaha məcburetmə təhsil səviyyəsi aşağı və yüksək olan ailələrdə də qeydə alınır".

**E.Səfərov ümumilikdə bu kimi hallarda KİV-lərin üzərinə də böyük məsuliyyət düşdüyünü qeyd edib:**

"Bəzi hallarda intihar edənin, intihara cəhd edib sağ qalanın fotoları, ünvanları mətbuatda göstərilir. Bunlar həmin şəxsin ailə üzvlərinin sonrakı həyatı üçün də problemlə çevrilir. Media nümayəndələri şərti adlardan istifadəyə önəm verməlidirlər. Onların fotolarının açıq şəkildə mətbuatda yayımlanması yolverilməzdir. Biz həmişə mətbuat nümayəndələrinə çağırış etmişik ki, fotoların verilməsi zamanı üzün bağlanması, adların şərti verilməsi, kəndin adının qeyd edilməməsinə diqqət etsinlər. Bu, həmin ailənin müdafiə edilməsinə yönəlib. Bəzi ailələrdəki uşaqlar intihara cəhd etsə də, sağlam qalıb. Mətbuat nümayəndələri onun şəkillərini yayırlar, intervyu alırlar. Bu, heç bir halda düzgün deyil. Bu artıq insan hüquqlarının pozulmasıdır. Azərbaycan Respublikasının qanunvericiliyinə görə, hər bir şəxs insanların şəxsi həyatının toxunulmazlığının pozulmasına görə məsuliyyət daşıyır".

Xatırladaq ki, bir ay ərzində Zaqatala və Cəlilabadda iki 17 yaşlı qızın intiharı faktı qeydə alınıb. Onların erkən nikaha məcbur edilidiyi iddia olunub və bu addımı ona görə atdıqları bildirilib.

Qeyd edək ki, qadını nikaha daxil olmağa məcbur etmə faktına görə Cinayət Məcəlləsinin 176-1 maddəsində cəza tədbirləri nəzərdə tutulub.

Bu maddəyə görə, qadını nikaha daxil olmağa məcbur etməyə görə iki min manatdan üç min manatadək cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə - üç min manatdan dörd min manatadək cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Elan**

**Ağdaş rayon Ərəb kənd sakini Məhərrəmov Raqif Şakir oğluna məxsus JN-336 saylı dövlət aktı itdiyi üçün etibarsız sayılır.**

******

**Ağdaş rayon Ərəb kənd sakini Məhərrəmov Şakir Məhərrəm oğluna məxsus JN-335 saylı dövlət aktı itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 165 (7335) 8 avqust 2019

# Avroliqa- Yəmən yəhudiləri bakılılara qarşı

## Avropa Liqasının üçüncü təsnifat mərhələsində "Neftçi" bu gün İsrailin "Bney Yehuda" klubu ilə qarşılaşacaq

**UEFA Avropa Liqasının üçüncü təsnifat mərhələsi çərçivəsində "Neftçi" bu gün İsrailin "Bney Yehuda" klubu ilə qarşılaşacaq. "Bakcell Arena"da keçiriləcək "Neftçi" - "Bney Yehuda" oyunu saat 21:00-da başlayacaq. Qarşılaşmanın idarə olunması fransalı hakimlər briqadasına tapşırılıb. Oyunun baş hakimi Kərim Abed olacaq. Ona Hişam Zakrani və Mikael Berçebru kömək edəcəklər. Dördüncü hakim funksiyasını Floran Batta yerinə yetirəcək.**



"Bney Yehuda" komandası Bakıya heyətində iki legionerlə gəlir. Bunlar qapıçı Emiliyus Zubas (Litva) və yarımmüdafiəşi İsmaila Sorodur (Kot dİvuar). İsrailin paytaxtını təmsil edən klub 1936-cı ilin yanvarında yaradıb. Klubun adının belə adlanmasının səbəbi isə Yəmən yəhudilərinin özlərini Yaqub peyğəmbərin dördüncü övladı - "Tövrat"da adı çəkilən İudanın nəslinin davamçıları sayması olub. İuda isə yəhudi dilində "Yəhuda" adlandığından, klubun adı "Bney Yehuda" qoyulub. Yəni "Yəhudanın davamçıları".

1940-cı ildə IV divizionda debüt edən klub ilk dəfə 1959-cu ildə yüksək diviziona vəsiqə qazanıb. 1968-ci ildə isə ilk mükafatını-ölkə kubokunu qazanıb. Komanda dörd dəfə ölkə kubokunu başı üzərinə qaldırıb, bir dəfə isə Superkuboku bayram edib. 1989/90 mövsümündə isə tarixində ilk və hələ ki son dəfə İsrail çempionu ola bilib.

Klub paytaxt Təl-Əvivin "Makkabi" və "Hapoel"idən sonra şəhərin üçüncü klubu sayılır. Bu mövsüm çempionatda 5-ci yeri tutan "Bney Yehuda" ölkə kubokunu qazanması sayəsində Avropa Liqasının III mərhələsindən mübarizəyə qatılmaq imkanı əldə edib. "Neftçi" ilə oyun bu komandanın 14-cü avrokubok matçı olacaq.

Bu klub 10 il əvvəl avrokubok matçında hazırda I divizionda olan "Zaqatala" ilə qarşılaşıb. Zaqatalalılar Bakıda 0:1, İsraildə isə 0:3 hesablı məğlubiyyətlə üzləşiblər. "Bney Yehuda" ev oyunlarını "Ramat Qan" stadionunda keçirir.

"Yeni Müsavat" xəbər verir ki, "Bney Yehuda" klubunun baş məşqçisi Yossi Abukasis 1970-ci ilin 10 sentyabrında anadan olub. Karyerasına "Hapoel"in gənclər komandasında başlayıb, 1987/1988-ci illər mövsümündə isə əsas kluba gəlib. Elə həmin il "Hapoel" ölkə çempionluq qazandı və Abukasis komandada daha 5 il oynadı. 1994/1995 mövsümündə Abukasis "Bney Yehuda"nın heyətinə keçdi. Sonra isə "Beitar Jerusəlim" klubuna transfer olundu. Abukasis 1995-ci ildən 2001-ci ilə qədər bu klubun heyətində oynadı. Onun oynadığı dönəmdə klub iki dəfə çempionluğu bayram etdi. Abukasis İsrail millisinin heyətində 2000-ci il Avropa çempionatına qatılıb.





2001/2002-ci illər mövsümündə Abukasis "Hapoel"ə qayıtdı, daha il yarım burada oynadı və karyerasını başa vurdu. 2013-2016-cı illərdə Abukasis "Bney Yehuda"nın baş məşqçisi olub. Daha sonra qısa fasilə verib və 2017-ci ildən klubun yenə əsas məşqçisidir.

**Neftçi" ilə qarşılaşacaqları oyunlar haqda fikirlərini bildirib. Abukasis "Neftçi"nin güclü komanda olduğunu deyib:** ""Neftçi"nin Tula "Arsenal"ına qarşı oyununda idim. Onlar yüksək keyfiyyətli legionerlərə sahib güclü komandadır. "Neftçi"yə qarşı oynamaq bizim üçün çətin olacaq. Yaxşı nəticə əldə etmək üçün nəyə qadir olduğumuzu göstərməliyik".

Avrokuboklarda ardıcıl 4 qələbə ilə Azərbaycan futbol tarixinə düşən "Neftçi" yaxşı formadadır. "Neftçi", ümumiyyətlə, italiyalı mütəxəssis Roberto Bordinin kluba gəlməsindən sonra xüsusən taktiki planda xeyli önə çıxa bilib. Tula "Arsenal"ı ilə son oyunu MATÇ-TV-də izləyənlər bilir ki, rus şərhçilər klubumuz haqda ən xoş sözlər dedilər. "Arsenal" ilk dəfə olaraq Avrokuboklarda gücünü sınasa da, Rusiya çempionatının səviyyəsi Azərbaycanla müqayisə edilə bilməz.

"Neftçi" Avroliqanın qrupuna düşmək şansını buraxmamalıdır. Çünki klubun hazırkı formada qalması üçün Avroliqanın qrup mərhələsində iştirakı çox əhəmiyyətlidir. Kluba azarkeş dəstəyi də artıb və "Qarabağ"dan sonra "Neftçi"nin də uğurları hamını sevindirməlidir.

"Qarabağ"dan ayrılan Vild-Donald Geryenin karyerasını "Neftçi"də davam etdirəcəyi təsdiqlənsə, bu, bakılılar üçün yaxşı xəbər olacaq. Onunla iki illik müqavilə imzalanacağı gözlənilir. Futbolçu "Instagram" hesabının hekayə bölümündə "ağ-qara" formada fotosunu paylaşaraq, "Neftçi"yə keçdiyinə işarə vurub.

Haitili oyunçunun "Qarabağ"da çox faydası dəymişdi və "Neftçi" bu transferdən ancaq uda bilər.

"Bney Yehuda"nın bu heyətilə "Neftçi"ni keçmək şansları sıfıra bərabərdir. Sadəcə, möcüzə ilə bacara bilərlər. Ancaq onların Yossi Abukasis kimi dahi baş məşqçisi var. "Neftçi" isə çox güclüdür". Qol.az xəbər verir ki, bu sözləri "Sumqayıt"ın israilli oyunçusu Əmir Ağayev ölkəsinin mətbuatına müsahibəsində deyib.

**Avropa Liqasının 3-cü təsnifat mərhələsində "Neftçi" ilə İsrailin "Bney Yehuda" klubunun mübarizəsini dəyərləndirən yarımmüdafiəçi təmsilçimiz haqda müsbət fikirlər səsləndirib:** "Ötən mövsüm çempionluğu son anda əldən verdilər. Möhtəşəm futbolçulara malik olan böyük klubdur. Dario Frederiko kimi futbolçuları var. Onlar güclü hücum xəttinə malikdir. "Bney Yehuda" bunu göz önünə almalıdır".

**Ə.Ağayev "Bney Yehuda"dan yalnız Din Morinin ondan "Neftçi" haqda soruşduğunu bildirib:** "Din Moridən başqa heç kim mənimlə danışmayıb. "Neftçi"ni keçəcəklərinə inanmağım çətindir. Məncə, "Bney Yehuda" heyətini gücləndirmək və çempionatı düşünür. Bu səbəbdən də mənimlə əlaqə saxlamadıqlarını düşünürəm".

Qeyd edək ki, Əmir Ağayev "Bney Yehuda"nın yetirməsidir və 2017-ci ilə qədər bu klubda çıxış edib.

Uğurlar, "Neftçi"...

❑ **ORXAN ƏLİYEV, "Yeni Müsavat"**





UEFA EUROPA LEAGUE

YENİ MÜSAVAT

Son səhifə

N 165 (7335) 8 avqust 2019

## Bunları bilirsinizmi?

* Hər gün hava yollarından ortalama 10 milyon adam istifadə edir.
* Pirat Disklər orjinal disklərin gəlirlərini 52% azaldır.
* Son 3 ildə Azərbaycanda ən çox satılan maşın "Mercedes"dir
* İndiyə qədər 1 aprel zarafatlarından 1000-ə qədər adam dünyasını dəyişib.
* Yaponiyada küçələrin adları olmur.
* Kosmosda astronavtlar qışqıra bilmir, çünki orada cazibə qüvvəsi yoxdu, həmçinin onların gözlərindən yaş da gəlmir.
* İndoneziyada bazarlıq edərkən satıcı pulu yerə atsa son qiymət mənasına gəlir, yeni artıq razılaşıb.
* İndiyə qədər 500 dəfəyə yaxın Azərbaycan əraziləri internetdə səhv verilib.
* Azərbaycan gerbindəki alovda ALLAH yazısını oxumaq mümkündür.
* ARDNŞ (SOCAR) dünyanın ən varlı 16-cı dövlət şirkətidir.
* Sevdiyimiz zaman beynimiz "phenylethylamine" düzəldir. Bu ürək döyüntüsünü tezləşdirir və özümüzü xoşbəxt hiss etməyimizə səbəb olur. Bu kimyəvi maddə şokoladda da var.
* Ürəyin işləməsini yazan ilk elektrokardiografiya cihazını 1903-cü ildə Willem Einthoven icad etdi
* Antraktidanın beynalxalq telefon kodu 672 di.
* Hərbi salamı sol əllə vermək bütün dünyada qadağandır.
* İlk metro stansiyası 1860-ci ildə Londonda açılıb.
* İnsanlar duyğulandıqları üçün, heyvanlar isə fiziki ağrı hiss etdikləri üçün ağlayarlar.
* Sağ əli istifadə etmək ömrü uzadır.
* İnsan vücudunun ən güclü əzələsi dildədir.
* Sümük dəmirdən daha möhkəmdir.
* Bir addımda 200 əzələ işləyir.
* İnsan bir ömür boyu iki hovuzu dolduracaq qədər ağız suyu ifraz edir.
* Qəmgin olmaq gülməkdən daha çox əzələni hərəkətə gətirir.
* İnsan vücudundakı sümüklərin dörddə biri ayağındadır.
* Öskürəyin sürəti 26,8224 m/s dir.
* Asqırığın sürəti 44,704 m/s dir.
*Çox yemək karlığa səbəb olur.
* Körpələr bala öküzlərdən daha güclü olur.
*İnsan burnu 50 min iyini hiss edə bilir.
* Qadınların kişilərə nisbətdə daha yaxşı iyi bilmə qabiliyyəti var.
* Beyin işləməsi üçün 10 Vat enerjiyə ehtiyac var.
* İQ yüksəkliyi pozitiv enerji verir.



## 97 yaşlı kişinin hər kəsdən şübhələnməsi milyoner olmasına səbəb oldu

**Amerikanın Oreqon ştatının sakini nəvəsinin diqqətsizliyi ucbatından az qala böyük miqdarda lotereya uduşunu qaçırırdı. Bu barədə xəbər portalı UPI məlumat verib. 97 yaşlı Vilyam Bouker xatırlayır ki, nəvəsi onlara qonaq gəlib və lotoreya biletini yoxlamağı təklif edib. "O, qərar verib ki, mən Mega Million yarışmasında iştirak etdiyim üçün qalib gəlmə şanslarım da yüksəkdir. Amma mən Game Megabucks-dan bilet almışam. O, bileti yoxlayıb qurtarandan sonra mən öz biletimi yoxladım və şükür Allaha ki, böyük məbləğ uddum".**

Boukeri təəccübləndirən o olub ki, Game Megabucks-da uduşlu rəqəmlərin kombinasiyası 14-32-41-43-44-47 olsa da, onun nəvəsi tamam başqa rəqəmləri qeyd edib. "Lotereya biletinə baxmaqla buna əmin olmaq olar" - kişi əlavə edib. Nəvəsinə olan inamsızlıq kişiyə 6.5 milyon dollar qazandırıb.

Qalib qərar verib ki, qazandığı pulu ailə üzvləri arasında bölsün. "Mənim 97 yaşım var və hər şeyim var. İndi isə mənə ailə üzvlərimə kömək etmək üçün möcüzə kimi bir şans yaranıb".

Fevral ayında xəbər verildi ki, Avstraliyanın Tasmaniya ştat sakini 1.7 milyon dollarlıq lotereyanın qalibi olub. Qadın az qala internetinin olmamasına görə bu mükafatdan məhrum olurmuş.

# Kişi əyləncə üçün soyadını dəyişdirdi və...



**İngiltərənin Byud şəhər sakini familiyasını dəyişdiyi üçün yeni pasport ala və Böyük Britaniya sərhədlərini tərk edə bilmir. Bu barədə "Daily Mirror" nəşri xəbər verir. 33 yaşlı Kenni Kennard əyləncə xatirinə 2016-cı ildə soyadını dəyişib. O, iddia edir ki, bu məsum zarafat onun əleyhinə, problem kimi yönəlib. Bu ilin əvvəlində kişinin pasportunun istifadə müddəti bitib. Amma onun yeni sənəd almaq üçün müraciəti rədd edilib. Onun soyadını ətrafındakı insanlar üçün aşağılayıcı hesab ediblər. "Mən sürücülük vəsiqəsi alanda xahiş etdim ki, orada soyadını Fu-Kennard olaraq dəyişdirsinlər. Ona görə də düşündüm ki, pasportla bağlı durum da eyni cür olacaq. Amma bu məsələdə yanıldım".**

Hazırda britaniyalı pasportsuz yaşayır və səyahət edə bilmir. "Mən sahilkənarı şəhərcikdə yaşasam da, yeni ölkələrə səyahət etməyi sevirəm. Üç il bundan əvvəl Şri Lankada olmuşam. Mən o qədər çox yerdə olmaq istəyirəm ki. Bunlardan biri də Kambocadır. Amma indi məni sanki türməyə atıblar".

Müvafiq qurumların yasağına baxmayaraq, Kenni Fu-Kennard soyadında israr edir. "Məni və dostlarımı bu baş verənlər hətta şadlandırır. Həyat darıxmaq üçün çox qısadır".

# Uşağın su çiçəyi xəstəliyi ölümcül xəstəliyə çevrildi



**İngiltərənin Bricouter şəhərində həkimlər balaca uşağın su çiçəyi keçirməsindən sonra onda ölümcül xəstəlik aşkarlayıblar. Bu barədə Britaniyanın "Daily Record" nəşri xəbər verib. 1 yaşlı Fletçer Smit böyük bacılarından su çiçəyi xəstəliyinə yoluxub. Aradan bir neçə gün keçəndən sonra uşağın anası Kerri görüb ki, uşağın başı şişib. Qadın uşağı xəstəxanaya çatdırıb. Orada ona sepsis diaqnozu qoyulub. O, bu xəstəliyə bədənindəki yaralara görə yoluxub. Fletçerə antibiotik kursu yazıb, evə buraxıblar.**

Aradan bir neçə gün keçəndən sonra uşağın temperaturu artıb və Kerri yenidən həkimə müraciət etməli olub. Onlar uşaqda yenidən sepsis xəstəliyi aşkarlayıblar. Bu zaman dəqiq cavab verməyən analizlərdən sonra həkimlər uşağı kəllə sümüyünün analizi üçün yollayıblar. Onlar uşaqda qan xərçənginin ən aqressiv formasını aşkarlayıblar. Bu halda qandakı leykositlərin miqdarı azalır ki, bu da özlüyündə immunitetin aşağı düşməsinə səbəb olur.

"Biz biləndə ki, Fletçerdə xərçəng xəstəliyi var, demək olar ki, sındıq. Mən elə hiss edirdim ki, kimsə mənim sinəmə yumruqla vurur və bu, çox dəhşətli bir hiss idi" - bunu anası deyib.

Həkimlər uşağa diaqnoz qoyandan sonra ona kimyəvi müalicə təyin edilib. O, hazırda uşaq klinikalarından birində müalicə keçir. Mütəxəssislər eyni zamanda onun üzərində araşdırma apararaq ən effektiv müalicəni tapmağa çalışırlar. Gözlənilir ki, araşdırma 7 aya yaxın davam etsin.



## İcazəsiz peçenye yedi, valideynləri onu meşəyə qovdu

**Corciya ştatında valideynləri 14 yaşlı qızı evdən qovublar. Buna səbəb qızın icazəsiz Pop-Tart peçenyesi yeməsi olub. Qızcığaz evin yaxınlığında yerləşən meşəyə qovulub. 36 yaşlı Kristal Driqqers və 33 yaşlı Allen Driqqers uşaqlarına vəhşi qabanların də olduğu, evə yaxın yerdə yerləşən meşədə çadır qurmağı və bir həftə boyunca orada qalmağı tapşırıblar. Ona özü ilə ancaq əl fənəri, saat, fit və tualet kağızı götürməyə icazə veriblər. Uşaq ancaq onun üçün müəyyən edilmiş saatda yemək dalınca evə gələ bilər. Qızı yerli sakinlərin görməsi ilə polisə xəbər verməsi bir olub. Həmin vaxt qız artıq 2 sutka idi ki, meşədə idi. Hətta meşədə qaldığı günlərdən birində güclü fırtına qopub, amma bu, valideynlərinin cəza qərarına təsir etməyib. Driqqerslərə qarşı valideyn öhdəliklərini yerinə yetirməməklə bağlı ittiham irəli sürülüb. Onların dörd uşaqlarını müvəqqəti olaraq nənə-babalarına veriblər. Məhkəmənin yekun qərarından sonra uşaqların da, valideynlərinin də taleyi müəyyən olunacaq. Driqqers cütlüyü bodibildinqlə məşğul olublar. Ana "Çimərlik bədəni" adlı kampaniyaya sahib olub.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 3.050

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.